# UŞAQLARI TƏHDİD EDƏN QLOBAL TƏHLÜKƏ

Uşaqların sosial şəbəkələrdən istifadəsinə məhdudiyyətlərin tətbiq edilməsi ilə bağlı bir sıra ölkələr qərarlar qəbul etməyə başlayıb. Qanunvericilik səviyyəsində ilk addımı Avstraliya atıb.

İnternet və sosial media olmadan müasir dünyanı təsəvvür etmək mümkün deyil. Lakin bu resurslar rahat və əlçatan olsa da, xüsusilə yetkinlik yaşına çatmayanlar üçün ciddi risklər də daşıyır. Virtual dünya uşaq və yeniyetmələrə xüsusilə güclü təsir göstərir. Gec də olsa, artıq dünya ölkələri həyəcan təbili çalmağa başlayıb.

SƏHİFƏ 5-də



‘KASPİ’ QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
www.kaspi.az
7 FEVRAL ŞƏNBƏ 2026 I № 05 (4256)
Qiyməti - 60 qəpik



## TİCARƏT VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLƏCƏK

Əbu-Dabidə başlayan sülh prosesinin qısa zamanda uğurla yekunlaşacağına dair proqnozlar nikbindir. Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın növbəti danışıqları da pozitiv ruhda keçib.

SƏHİFƏ 2-də



## PUL KÖÇÜRMƏLƏRİ DAHA TƏHLÜKƏSİZ OLACAQ

Ani Ödənişlər Sisteminə keçid yalnız texniki bir dəyişiklik deyil. Azərbaycanda ödəniş ekosisteminin daha müstəqil, sürətli, təhlükəsiz və səmərəli olması istiqamətində atılmış böyük bir addımdır.

SƏHİFƏ 12-də



## TARİX BANK BİNASININ KÖLGƏSİNDƏ

Əbdül-Müslüm Maqomayevin vaxtilə Lənkəranda yaşadığı ev sökülüb, yerində bank binası tikilib. Bu zaman bəstəkarın vaxtilə burada yaşadığını göstərən xatirə lövhəsi də götürülüb, yenisini qoymaq isə yaddan çıxıb.

SƏHİFƏ 7-də



# QALİB LİDERƏ BEYNƏLXALQ ETİMAD

Prezident İlham Əliyevin qazandığı ən böyük mükafat Azərbaycan xalqı tərəfindən verilib. O, müasir Azərbaycanın tarixində Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan kimi özünəməxsus yer tutub.

### SÜLH SƏYLƏRİNƏ VERİLƏN DƏYƏR

Prezident İlham Əliyevin “Zayed İnsan Qardaşlığı Mükafatı”na layiq görülməsi tamamilə təbii xarakterə malikdir. Bu, Azərbaycan Prezidentinin sülhə nail olmaq üçün göstərdiyi fəaliyyətin beynəlxalq aləmdə qəbul olunmasının təzahürüdür.

### QALİBİYYƏTİ SÜLHƏ DAŞIYAN LİDER

İlham Əliyev müharibədən sonra da qalibiyyətin məsuliyyətini daşıyan lider obrazını ortaya qoydu, sülhə və quruculuğa üstünlük verdi. O, güclü ordunun sülhün əsas təminatçısı olduğunu sübut edərək, müasir dövlətçilik modelini uğurla tətbiq edir.

SƏHİFƏ 3-də

“İnsan işinin məcnunu olmalıdır”

## “NİYƏ” SUALI İLƏ HƏYATI DƏYİŞƏN AZƏRBAYCANLI GƏNC



Onun adı bu il Prezident mükafatına layiq görülən 10 gənc arasında çəkilir. Uğurunun sirrini isə özünə verdiyi suallarda görür. Deyir ki, “bakalavr pilləsini bitirəndə elə bilirdim ki, çox şey bilirəm. Magistraturada az bildiyimi anladım, doktoranturada isə dərk etdim ki, dünya olaraq hələ öyrənməli çox şeyimiz var”. Müsahibimiz Prezident mükafatçısı Mahmud İsmayılov ADNSU-nun Mexanika kafedrasında müəllim və doktorantdır.

SƏHİFƏ 8-9-da



## ƏDALƏTİN TƏNTƏNƏLİ ZƏFƏRİ

Azərbaycan İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatları ilə tək ərazi bütövlüyünü bərpa etmədi. Həm də milyonlarla vətəndaşının pozulmuş hüquqlarında əlləri olanların ədalət divanı qarşısına çıxarılmasına nail oldu.

SƏHİFƏ 4-də



## RELSLƏR ÜZƏRİNDƏKİ YENİ ÜMİD

Tramvay xətti Bakının şimal qəsəbələrini şəhər mərkəzi ilə birləşdirərək ictimai nəqliyyatın payını artırmağı hədəfləyir. Tramvayın metro və digər nəqliyyat növləri ilə düzgün inteqrasiyası sərnişindaşımada rahatlıq yaradacaq.

SƏHİFƏ 6-da



## ƏDVİYYAT BAZARINDA ASILILIQ PROBLEMİ

Ədviyyat bazarımız idxal hesabına formalaşır. Bu da qiymətləri qlobal bazardan asılı vəziyyətə salır. Yerli istehsal yalnız bəzi məhsullarla məhdudlaşır. Mütəxəssislər hesab edirlər ki, idxaldan asılılıq davam edəcək.

SƏHİFƏ 14-də



SOCAR aparıcı neft-qaz şirkətləri sırasında

SƏHİFƏ 10-da



Bakıda məktəbdə silahlı insident

SƏHİFƏ 10-da



Süfrələrdə çoxdur, bağlarda az

SƏHİFƏ 11-də



Portuqaliyanın dini paytaxtı

SƏHİFƏ 15-də



Sistemli inkişaf, real nəticələr

SƏHİFƏ 16-da

# İKİTƏRƏFLİ TİCARƏT VƏ İQTİSADİ ƏMƏKDAŞLIQ GENİŞLƏNDİRİLƏCƏK

**Əbu-Dabidə başlayan, Vaşinqtonda rəsmiləşdirilən sülh prosesinin qısa zamanda uğurla yekunlaşacağına dair proqnozlar nikbindir. Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın növbəti danışıqları da pozitiv ruhda keçib.**



F.ABASOĞLU

Əbu-Dabi növbəti dəfə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistan Baş naziri Nikol Paşinyanın sülh danışıqlarına ev sahibliyi edib. Xüsusi vurğulanmalı məqam ondan ibarətdir ki, Vaşinqton razılaşmalarına aparan yolun təməli də məhz Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında atılıb. Bu dəfə isə iki ölkənin rəhbərliyi konkret olaraq sülh platformasının detallarını müzakirə ediblər.

### ƏLDƏ OLUNAN İRƏLİLƏYİŞLƏR ALQIŞLANIR

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan ABŞ Prezidenti Donald Trampın ev sahibliyi, eyni zamanda şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar.

Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini qeyd ediblər. Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər.

Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər. Onlar, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan TRIPP və digər bağlantı layihələrinin həyata keçirilməsini müzakirə ediblər. Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün, sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.

## SON ALTI AYDA MÜŞAHİDƏ OLUNAN NƏTİCƏLƏR

Sülh prosesində müşahidə olunan dinamika hər iki ölkənin liderlərinin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindəki çıxışı zamanı da xüsusi qeyd edilib. Prezident İlham Əliyev bildirib ki, Vaşinqton görüşündən keçən altı ay münasibətlərimizin inkişafı baxımından çox mühüm olub. "Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk", - Azərbaycan Prezidenti deyib.

Ermənistan Baş naziri Nikol Paşinyan isə iki ölkənin xalqları arasında əmin-amanlığın təmin olunması və etimada əsaslanması üçün səylərin davam etdiriləcəyini bildirib.

### VENSİN GÖZLƏNİLƏN SƏFƏRİNƏ HAZIRLIQ

Tərəflər arasında siyasi dialoq davam edərkən regionda da sülh prosesini gücləndirəcək real addımlar atılmaqdadır. Bugünlərdə ABŞ Vitse-prezidenti Jey Di Vensin Ermənistan və Azərbaycana səfəri gözlənilir. Məqsəd həm sülh gündəliyini daha da irəli aparmaq, həm də Vaşinqtonda əldə edilmiş razılığa əsasən Zəngəzur dəhlizinin açılması istiqamətində işləri sürətləndirməkdir. Onun Ermənistana səfərinin hazırlanması məqsədilə ABŞ-dan nümayəndə heyəti gəlib. Nümayəndə heyəti Ermənistanda iki həftə qalacaq. Məhz TRIPP layihəsi çərçivəsində görüləcək işləri razılaşdıracaqlar. ABŞ-nin mühəndis-konsaltinq şirkəti olan AECOM-un komandası da TRIPP layihəsi üçün ərazinin tədqiqinə başlamaq məqsədilə Ermənistana səfər edib.

"TRIPP layihəsi Cənubi Qafqazda güclü qarşılıqlı əlaqəli iqtisadiyyatların yaradılması və davamlı sülhün dəstəklənməsi yolunda tarixi addımdır", - bunu isə ABŞ Prezidenti Donald Trampın Mərkəzi Asiya üzrə xüsusi elçisi Sercio Qor Bişkekdə keçirilən "B5+1" biznes forumunda bəyan edib.

"Ermənistan və Azərbaycanı birləşdirən tarixi sülh sammitindən bəri biz "Tramp Marşrutu"nu (TRIPP) təşviq etməyə davam edirik. Bu marşrut Mərkəzi Asiyadan Cənubi Qafqaz vasitəsilə və daha sonra Qərbə birbaşa nəqliyyat əlaqəsini təmin edəcək. Bu, güclü qarşılıqlı əlaqəli iqtisadiyyatların yaradılması və regionda davamlı sülhün qorunması yolunda tarixi addımdır", - Qor bəyan edib.



Jey Di Vens

## AZƏRBAYCANIN SÜLH ÜÇÜN ATDIĞI ARDICIL ADDIMLAR

Azərbaycan tərəfində isə rəsmi Bakı Vaşinqton razılaşmalarının ruhuna uyğun olaraq Ermənistana daşınan məhsullara tətbiq etdiyi tranzit embarqosunun ləğvindən sonra bu istiqamətdə real addımlar atmaqda davam edir. Son məlumatlara görə, Rusiya taxılı daşıyan növbəti yük qatarı Azərbaycandan tranzit keçməklə Ermənistana göndərilib. Qatar fevralın 4-də yola salınıb. İndiyə qədər Rusiyadan Ermənistana Azərbaycan ərazisindən tranzit keçməklə 285 taxıl vaqonu (19 min 900 tona yaxın) göndərilib. Bu siyahıya Qazaxıstan da aiddir. Azərbaycan Ermənistan tərəfinin istəyi ilə bu ölkəyə yanacaq məhsullarını da ixrac edir. Bu ixracın Ermənistandakı yanacaq qiymətlərinin aşağı düşməsinə təsirini İrəvan dəfələrlə bəyan edib.

Beləliklə, Əbu-Dabidə başlayan, Vaşinqtonda rəsmiləşdirilən sülh prosesinin qısa zamanda uğurla yekunlaşacağına dair proqnozlar nikbindir.

# QALİB LİDERƏ BEYNƏLXALQ ETİMAD

Prezident İlham Əliyevin qazandığı ən böyük mükafat Azərbaycan xalqı tərəfindən verilib. O, müasir Azərbaycanın tarixində Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan kimi özünəməxsus yer tutub.

RASİM MƏZAHİROĞLU

Cənubi Qafqazda İkinci Qarabağ müharibəsi və bundan üç il sonra baş tutan birgünlük antiterror tədbirləri ilə tamamilə yeni reallıqlar yaradan Azərbaycan regionun geosiyasi, geoiqtisadi arxitekturasını, bölgədəki münasibətlər sistemini də yenidən qurur. Bu zaman diqqət yetirilən başlıca məqamlardan biri uzun illər qanlı toqquşmalardan, düşmənçilik münasibətlərindən əziyyət çəkən regionda barış və əməkdaşlıq mühitinin hökm sürməsinə nail olmaqdır. Təsadüfi deyil ki, Vətən savaşından sonra Ermənistanla sülh əldə edilməsinin təşəbbüskarı da məhz Azərbaycan, onun lideri oldu. Ötən dövr ərzində Prezident İlham Əliyevin Ermənistanla münasibətlərdə düşmənçilik səhifəsinin bağlanması, sülh şəraitində əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində fəaliyyəti artıq bəhrəsini verir.

### DÖYÜŞ MEYDANINDAKI QƏLƏBƏ DİPLOMATİK MASADA MÖHKƏMLƏNDİRİLİR

Bu kontekstdə yanaşsaq, Prezident İlham Əliyevin 2026-cı il üçün "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi tamamilə təbii xarakterə malikdir, Azərbaycanın sülh təşəbbüslərinə verilən beynəlxalq qiymətdir. Dünyada münaqişələrin, sosial bərabərsizliyin və mədəni qarşıdurmaların artdığı bir dövrdə insan qardaşlığı, qarşılıqlı hörmət və dialoq anlayışlarının təşviqi məqsədilə təsis edilən "Zayed İnsan Qardaşlığı Mükafatı" qlobal miqyasda sülh, tolerantlıq və humanizm ideyalarının yayılmasına xidmət edən nüfuzlu beynəlxalq mükafatlardan biridir. Mükafat Birləşmiş Ərəb Əmirliklərinin təşəbbüsü ilə 2019-cu ildə təsis olunub və adını bu dövlətin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın humanist dünyagörüşündən alır. Mükafat dünyanın ən nüfuzlu humanitar təltiflərindən biri hesab olunur, Əl-Əzhər Böyük İmamı və Roma Papası tərəfindən dəstəklənir.

Mükafatın qalibləri sırasında Azərbaycan Prezidentinin yer alması onun sülhə nail olmaq üçün göstərdiyi qətiyyətin, genişmiqyaslı fəaliyyətin beynəlxalq aləmdə qəbul olunmasının və yüksək qiymətləndirilməsinin təzahürüdür. Bu həm də onun da göstəricisidir ki, müzəffər Ali Baş Komandan İlham Əliyev döyüş meydanında liderliyi ilə qazanılan qələbəni diplomatik masada da uğurla möhkəmləndirir. Bütün dünya qəbul edir ki, İlham Əliyev hərbi uğuru siyasi-diplomatik nailiyyətə çevirməyi bacaran nadir liderlərdəndir.

Ermənistanla münasibətlərdə Azərbaycan Prezidentinin fəaliyyətində uğurlu nəticəni şərtləndirən daha bir faktor postmünaqişə dövründə yeni regional reallıqları dünyaya qəbul etdirməsidir. İlham Əliyev bölgədə sülhün, əməkdaşlığın və nəqliyyat-kommunikasiya xətlərinin açılmasının təşəbbüskarı kimi çıxış edərək, Cənubi Qafqazda uzunmüddətli sabitliyə xidmət edən yanaşma ortaya qoyur. Bu sistemli fəaliyyət ölkəmizə qarşı olan qüvvələri də yeni reallıqlarla barışmağa sövq edib. Ümumiyyətlə, beynəlxalq ictimaiyyət qəbul edir ki, Azərbaycan bu gün həm hərbi, həm də diplomatik baxımdan güclü dövlətdir və bu uğurların mərkəzində Prezident İlham Əliyevin uzaqgörən siyasəti dayanır.



## UĞUR SALNAMƏMİZ YENİ NAİLİYYƏTLƏRLƏ ZƏNGİNLƏŞİR

Azərbaycan bu gün təkcə regional güc deyil, eyni zamanda sülh və sabitlik təşəbbüslərinin müəllifi kimi tanınır. O mənada Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi təkcə Azərbaycan-Ermənistan münasibətlərində yeni səhifə açmasından qaynaqlanmır. Bunu şərtləndirən daha bir məqam Azərbaycan liderinin dünyanın hər bir guşəsində sülhün və təhlükəsizliyin təmin olunması istiqamətindəki təşəbbüslərdir. Ölkəmizin ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasının təsisçi üzvləri sırasında yer alması bu mənada heç də təsadüfi deyil.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim edilməsi Azərbaycanın dini tolerantlıq modelinin, multikulturalizm siyasətinin uğurunu da özündə ifadə edir. Başqa sözlə, bu mükafat birgəyaşayışın Azərbaycan modelinə verilən qiymətdir. Dünya qəbul edir ki, Azərbaycan humanitar dəyərlərə bağlılığı ilə seçilən, insan amilini dövlət siyasətinin



mərkəzində saxlayan bir ölkədir. Tolerantlıq, multikulturalizm və beynəlxalq həmrəylik prinsiplərinə əsaslanan bu siyasət ölkənin regional və qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunmasına mühüm töhfə verir. Azərbaycanın humanitar dəyərlərə sadiqliyi onun davamlı inkişafının və beynəlxalq nüfuzunun əsas dayaqlarından biri olaraq qalır. Bu istiqamətdə uğur formulunun mərkəzində dayanan həlledici məqamlardan biri məhz İlham Əliyevin siyasətidir. Onun "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın dünyada artan nüfuzunun, qazandığı yüksək hörmət və ehtiramın parlaq təcəssümüdür.

### ƏN BÖYÜK MÜKAFAT XALQIN SEVGİSİDİR

Ancaq şübhə yoxdur ki, Prezident İlham Əliyevin qazandığı ən böyük mükafat Azərbaycan xalqı tərəfindən verilib. O, müasir Azərbaycanın tarixində Xilaskar, Qalib Sərkərdə və Müzəffər Ali Baş Komandan kimi özünəməxsus, silinməz yer tutub. Bu adlar real tarixi nəticələrin, milli iradənin və dövlətçilik uğurlarının ifadəsidir. Qələbənin müəllifi kimi o, müharibədən sonra da Müzəffər Ali Baş Komandan olaraq qalibiyyətin məsuliyyətini daşıyan lider obrazını ortaya qoydu, sülhə və quruculuğa üstünlük verdi. O, güclü ordunun sülhün əsas təminatçısı olduğunu sübut edərək, müasir dövlətçilik modelini uğurla tətbiq edir. Onun rəhbərliyi ilə əldə olunan qələbə yalnız bir nəsil üçün deyil, gələcək nəsillər üçün də milli qürur mənbəyidir. Azərbaycan xalqı İlham Əliyevin liderliyi sayəsində öz suverenliyini tam bərpa etdikdən sonra qalib və güclü dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoyub.

# ƏDALƏTİN TƏNTƏNƏLİ ZƏFƏRİ

Azərbaycan İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatları ilə tək ərazi bütövlüyünü və suverenliyini bərpa etmədi. Həm də milyonlarla vətəndaşının pozulmuş hüquqlarında əlləri olanların ədalət divanı qarşısına çıxarılmasına nail oldu.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Azərbaycan torpaqlarının işğalında, soyqırımında, insanlıq əleyhinə və müharibə cinayətlərində ittiham olunan şəxslərin məhkəmə prosesi hökm elan olunması ilə başa çatdı. Bu prosesdə ortaya qoyulan faktlar, etiraflar ölkəmizə qarşı aparılan işğal siyasətinin, ekosid və urbisidin, soyqırımı aktlarının nə dərəcədə dəhşətli və ağır nəticələrə yol açdığını, haradan idarə olunduğunu açıq şəkildə ortaya qoyur. Bu proseslərdə ittiham olunanların təkzibedilməz sübutlarla məhkəmə qarşısında layiq olduqları cəzaları aldıqları şəksizdir.

## HÖKM ELAN OLUNDU

Bakı Hərbi Məhkəməsinin qərarı ilə Qarabağdakı keçmiş qondarma rejimin başçılarından Arayik Harutyunyana, "müdafiə naziri" Levon Mnatsakanyana, "parlamentin sədri" Davit İşxanyana, "xarici işlər naziri" David Babayana, Ermənistan silahlı qüvvələrinin general-mayoru David Manukyana ömürlük həbs cəzası verilib. Qarabağdakı keçmiş qondarma rejimin başçılarından olan Arkadi Qukasyan və Bako B.Saakyan 20 il müddətinə azadlıqdan məhrum edilib. Ermənistan silahlı qüvvələrinin tərkibində Xocalı soyqırımında iştirakını etiraf edən, Qarabağdakı keçmiş qondarma rejimin silahlı dəstələrinə könüllü qoşulan Madat Babayan isə 19 il müddətinə azadlıqdan məhrum edilib. Bunlarla yanaşı, Ermənistan Respublikası silahlı qüvvələrində xidmət etmiş Melikset Paşayan 19 il, Qarabağdakı keçmiş qondarma rejimin "dövlət naziri" Qarik Martirosyan 18 il, "Təhlükəsizlik Şurasının üzvü" Davit Allahverdiyan və qanunsuz birləşmələrin üzvü Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan, Erik Qazaryan isə hər biri 15 il müddətinə azadlıqdan məhrum ediliblər.

## ƏDALƏTƏ VƏ HAQQA ƏSASLANAN MÖVQE

Azərbaycan Vətən müharibəsi və antiterror əməliyyatları nəticəsində dünyada 30 illik işğal faktından sonra yalnız ərazi bütövlüyünü öz gücü ilə bərpa edən yeganə dövlət statusunu qazanmadı. Həm də bu işğalda ittiham olunanların layiq olduqları cəzaları alması üçün ədalət divanı qarşısında cavab vermələrinə nail



oldu. Beləliklə, ölkə rəhbərinin qətiyyətli siyasi iradəsi, ədalətə və haqqa əsaslanan mövqeyi ilə bir çoxlarının bacarmadığını reallaşdırdı.

## DƏMİR SİYASİ İRADƏ ÖZ SÖZÜNÜ DEDİ

Prezident İlham Əliyev hələ müharibədən əvvəl Xocalı soyqırımını, digər cinayətləri törədən şəxslərin mütləq ədalət mühakiməsinə cəlb olunacaqlarını, layiqli cəzalarını alacaqlarını və günahsız qurbanların qanının yerdə qalmayacağını demişdi. Tarixi qələbələrimiz sayəsində Prezident İlham Əliyevin Azərbaycan xalqına verdiyi bu vədi də reallığa çevrildi. Azərbaycan öz qətiyyəti hesabına ədaləti təmin etdi.

Məhkəmə prosesi zamanı ölkəmizə qarşı müxtəlif təzyiq və təhdidlərin olduğu heç kimə sirr deyil. Amma bizi haqq mövqeyimizdən çəkindirməyə çalışanların bütün cəhdləri uğursuzluğa düçar oldu. Bu qüvvələr bir daha Azərbaycan dövlətinin müstəqil siyasətinin gücünü görmüş oldular.

## AZƏRBAYCAN BUNU ÖZ GÜCÜ İLƏ ETDİ

Bəli, insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxsləri ədalət mühakiməsinə cəlb etmək ədalətin təntənəsindir. Bu, münaqişələrin və müharibələrin ədalətli həlli üçün ən məqbul modeldir. Azərbaycanın tarixi qələbəsi nəticəsində əldə etdikləri həm də dünya üçün bir nümunədir. Cinayətin cəzasız qalmayacağının, ədalətin gec-tez zəfər çalacağının nümunəsi. Bir çox münaqişə və müharibələr bitsə də, çoxsaylı mülki insanların qətlində əli olan cinayətkarların məsuliyyətdən kənarda qaldıqları heç kimə sirr deyil. İndiyə kimi bir çox nümunə var ki, müharibə cinayətkarları ədalət mühakiməsinə cəlb olunmamış qalıblar. Azərbaycan nümunəsini fərqləndirən ən mühüm cəhət Bakının cinayətkarları öz gücü hesabına mühakimə qarşısına çıxarmağa nail olmasıdır.



## TƏKZİBEDİLMƏZ FAKTLAR





Bu məhkəmə prosesi həm də 30 illik işğal dövründə beynəlxalq birliyin, sözdə vasitəçilərin gözardı etməyə çalışdıqları bir reallığı tam çılpaqlığı ilə ortaya qoydu. İyirmi faiz ərazilərimizin işğal edilməsində, minlərlə dinc sakinin soyqırımı aktlarına məruz qalmasında, şəhərlərimizin, kəndlərimizin yer üzündən silinməsində, bəşəri və müharibə cinayətlərinin arxasında dayanan əsas qüvvə məhz Ermənistan dövləti, vaxtilə ona rəhbərlik etmiş iqtidarlar olub. Məhkəmə prosesinin açıq şəkildə keçirilməsi ortaya qoyulan faktlar və etirafların artıq heç bir qüvvə tərəfindən təkzib oluna bilməyəcəyinə, məsuliyyətin Ermənistan hakimiyyətində olduğunun danılmayacağına da zəmin yaratdı. L.Mnatsaknayan açıq etiraf etdi ki, tarixdə qalmış qondarma rejimin ordusu müstəqil qüvvə deyildi və Ermənistan ordusunun ən böyük hərbi birləşməsi idi. Qondarma rejim ordusunda yuxarı vəzifələrə təyinat İrəvanda təsdiqlənirdi, ordunun təminatı Ermənistan Ordusunun daxilində təşkil edilirdi. Məhkəmədə A.Harutyunyanın hərbi xidmətdə olması, B.Saakyanın Şuşanın işğalında iştirakına dair kadrlar da bu şəxslərin Azərbaycan əleyhinə cinayətlərin əsas iştirakçıları olduğunu təsdiqlədi.

## DÜNYA ƏDALƏTİN TƏNTƏNƏLİ ZƏFƏRİNİN ŞAHİDİ OLDU

Ermənistan özünün mənfur planlarını, Azərbaycana qarşı törədilən cinayətlərdəki iştirakını ört-basdır etmək üçün işğal edilmiş ərazilərdə qondarma qurum yaratmışdı. Separatçı rejimə son qoyulması, işğal edilmiş ərazilərdəki terror yuvalarının ləğvi, əldə edilən sübutlar və bu siyasətin əsas iştirakçılarının mühakimə qarşısına çıxarılması Ermənistanda vaxtilə iqtidarda olmuş və olanların Azərbaycan əleyhinə qurduqları oyunları darmadağın etdi. Dünya bu məhkəmə prosesi ilə bir daha ədalətin təntənəli zəfərinin şahidi oldu.

# UŞAQLARI TƏHDİD EDƏN QLOBAL TƏHLÜKƏ



Uşaqların sosial şəbəkələrdən istifadəsinə məhdudiyyətlərin tətbiq edilməsi ilə bağlı bir sıra ölkələr ciddi qərarlar qəbul etməyə başlayıb. Bu istiqamətdə qanunvericilik səviyyəsində ilk addımı Avstraliya atıb. Fransa da analoji qərar verməyə hazırlaşır.



AZƏR NURİYEV

İnternet və sosial media olmadan müasir dünyanı təsəvvür etmək mümkün deyil. Lakin bu resurslar rahat və əlçatan olsa da, xüsusilə yetkinlik yaşına çatmayanlar üçün ciddi risklər də daşıyır. Virtual dünya uşaq və yeniyetmələrə xüsusilə güclü təsir göstərir. Gec də olsa, artıq dünya ölkələri həyəcan təbili çalmağa başlayıb.

### QADAĞANI DƏSTƏKLƏYƏN İLK AVROPA ÖLKƏSİ

Fransada 15 yaşdan kiçik bütün yetkinlik yaşına çatmayanların sosial mediaya girişini qadağan edən qanun layihəsi hazırlanıb. Layihə Assambleyada təsdiqləndikdən sonra Senat (Fransa parlamentinin yuxarı palatası) tərəfindən nəzərdən keçiriləcək və Prezident Emmanuel Makron tərəfindən imzalanacaq. Bunun 1 sentyabr 2026-cı ildə baş verəcəyi gözlənilir. Nəhayət qəbul edilərsə, Fransa sosial mediaya giriş üçün yaş həddi müəyyən edən ilk Avropa ölkəsi olacaq. Hansı platformaların məhdudiyyətlərə məruz qalacağı hələ dəqiqləşdirilməyib, lakin məlumdur ki, qanun layihəsi təhsil resurslarına və "Vikipediya" kimi onlayn ensiklopediyalara təsir göstərməyəcək. Digər məsələlərlə yanaşı, orta məktəbdə mobil telefonların istifadəsinin də qadağan edilməsi təklif edilir. Təşəbbüs Prezident Emmanuel Makron tərəfindən fəal şəkildə dəstəklənir. O bildirib ki, Fransa uşaqlarının beyinləri nə Amerika platformaları, nə də Çin alqoritmləri tərəfindən manipulyasiya edilməməlidir.

### HAMI BU TƏŞƏBBÜSÜ DƏSTƏKLƏMİR

Lakin hamı bu təşəbbüsü dəstəkləmir. Tənqidçilər qadağanı çox radikal adlandırır və bunun fərdi azadlığı poza biləcəyini, əsas problemləri həll etməyəcəyini iddia edirlər. Bəzi uşaqların müdafiəsi assosiasiyaları hesab edir ki, platformalar sadəcə girişi məhdudlaşdırmaq əvəzinə, istifadəçi təhlükəsizliyi üçün daha çox məsuliyyət daşımalıdır. Uşaqların psixi sağlamlığı ilə bağlı narahatlığın arxasında siyasi məsələlər də dayanır. Məsələn, sosial şəbəkələrin əksəriyyətinin xarici şirkətlərə məxsus olması. Onların əlində istifadəçilər haqqında böyük həcmdə məlumat, həmçinin insanın hansı məzmunlu materialları görəcəyinə təsir etmək imkanı var.

### MƏHDUDİYYƏTLƏR BU AY TƏSDİQLƏNƏCƏK?

Qanun layihəsinin müəlliflərindən biri, keçmiş baş nazir və prezidenti dəstəkləyən "Renessans" partiyasının baş katibi Qabriel Attal senatorların məhdudiyyətləri fevralın ortalarına qədər təsdiqləyəcəyinə ümid edir. Bu halda onlar yeni tədris ilinin əvvəlində - 1 sentyabrda qüvvəyə minəcək. Avropada ənənəvi olaraq bəzi platformaların Aİ-nin Rəqəmsal Xidmətlər Haqqında Qanununa (Digital Services Act, DSA) əməl etməkdən imtina etməsi də narazılıq doğurur. İlin əvvəlində "X" sosial şəbəkəsi ilə bağlı qalmaqal alovlanıb. Bu, orada generasiya edilmiş pornoqrafik məzmunlu şəkillərin, o cümlədən buna icazə verməyənlərin görünüşündən istifadə etməklə yaradılan təsvirlərin peyda olması ilə əlaqədar idi.

Qanun layihəsinin tənqidçisi, sol partiya "Təslim olmayan Fransa"dan olan parlament deputatı Arno Sen-Marten qadağanı "rəqəmsal paternalizmin bir forması" adlandırıb və bunun texnologiyaların mənfi təsirinə "həddindən artıq sadələşdirilmiş" reaksiya olduğunu qeyd edib.



Emmanuel Makron

Ursula fon der Lyayen

### AVSTRALİYA NÜMUNƏSİ

Qeyd edək ki, əslində Fransa Avstraliyanın nümunəsini götürüb. Avstraliya dünyada 16 yaşdan kiçik uşaqlara və yeniyetmələrə sosial mediadan istifadəni qadağan edən ilk ölkə olub. Məhdudiyyətlər 10 dekabr 2025-ci ildə qüvvəyə minib və 16 yanvar 2026-cı il tarixinə qədər İnternet Təhlükəsizliyi Komissarlığının ofisi platformaların 4,7 milyon yetkinlik yaşına çatmayan şəxsin hesabını blokladığını bildirib. Hakimiyyət orqanları dünyada 16 yaşdan kiçik istifadəçilər üçün onlayn platformalara qoyulan ilk qadağanı "qürur" adlandırır. İT nəhəngləri isə onun effektivliyinə şübhə ilə yanaşır. Məhdudiyyətlərdən təsirlənən məşhur platformalar arasında "Instagram", "Facebook", "TikTok", "YouTube", "Reddit", "Snapchat", "Threads", "Twitch", "X" və "Kick" var. Lakin zəif moderasiyaya görə tez-tez tənqidlərə baxmayaraq, "Roblox" kimi bəzi xidmətlər əlçatan olaraq qalır. Qanunun qüvvəyə minməsindən cəmi bir ay sonra media orqanları avstraliyalı yeniyetmələrin yeni qaydalara necə uyğunlaşdıqlarını anlamaq üçün sorğu keçiriblər və təsirin fərqli olduğunu aşkar etdilər.

### EFFEKTİV YAŞ YOXLAMA MEXANİZMİ HAZIRLANIR

Media məlumatlarına görə, Aİ səviyyəsində artıq effektiv yaş yoxlama mexanizminin hazırlanması üzərində iş aparılır. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen daha əvvəl sosial şəbəkələrə giriş üçün ümumavropa minimum yaş həddinin tətbiq edilməsinin lehinə çıxış edib. Bununla yanaşı, o, mümkün nəticələrin ekspert qiymətləndirilməsinin zəruriliyini vurğulayıb. Avropa Komissiyasının rəsmi nümayəndəsi Tomas Renye bildirib ki, 2026-cı ilin əvvəlində uşaqların sosial şəbəkələrdən istifadəsi məsələləri üzrə məsləhət qrupunun yaradılması planlaşdırılır.

Yeri gəlmişkən, ABŞ-də federal qanun sosial media və onlayn xidmətlərə valideynlərin razılığı olmadan 13 yaşdan kiçik uşaqlardan şəxsi məlumatlar toplamağı qadağan edir. Belə görünür ki, Avstraliyada atılan addım və Fransada davam edən məhdudiyyətlər tək bir ölkənin qərarı yox, qlobal bir prosesin başlanğıcıdır. Artıq hər bir ölkə təhlükənin ciddiliyini başa düşür və profilaktik addımlar atmağa başlayır. Bu məhdudiyyətlər effektiv olacaqmı – bunu zaman göstərəcək.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# RELSLƏR ÜZƏRİNDƏKİ YENİ ÜMİD

Çəkiləcək tramvay xətti Bakının şimal qəsəbələrini şəhər mərkəzi ilə birləşdirəcək. Ekspertlər bildirirlər ki, tramvayın metro və digər nəqliyyat növləri ilə düzgün inteqrasiyası sərnişindaşımada rahatlıq yaradacaq.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

## "TRAMVAY AVTOMOBİLƏ RƏQİB OLACAQ"

Bakının şimalındakı qəsəbələri şəhər mərkəzi ilə birləşdirəcək "Mehdiabad - 28 May" tramvay xəttinin çəkilməsi planlaşdırılır. Dövlət Proqramında prioritet kimi yer alan bu layihə təkcə yeni nəqliyyat xəttinin yaradılması deyil, paytaxtda ictimai nəqliyyatın rolunun gücləndirilməsi və avtomobil asılılığının azaldılması məqsədi daşıyır. Bəs tramvay xətlərinin tətbiqi Bakıya nə vəd edir və bu layihə nəqliyyatdakı mövcud problemlərin həllinə hansı töhfəni verə bilər?

### "ŞƏHƏRİN İSTƏNİLƏN İSTİQAMƏTİNƏ RAHATLIQLA GEDƏ BİLƏCƏKLƏR"

Ekspert Yasin Mustafayevin sözlərinə görə, xətt Abşeron yarımadasının şimal hissəsindən başlayaraq Mehdiabad, Məmmədli və Binəqədidən keçməklə "28 May" stansiyasınadək uzanacaq: "Başqa istiqamətlərdə də tramvay xətlərinin çəkilməsi nəzərdən keçirilə bilər. Lakin nəzərə almaq lazımdır ki, Bakı artıq formalaşmış şəhərdir: binalar və obyektlər tikilib, yeni xətlərin çəkilməsi üçün genişmiqyaslı sökүntülərə ehtiyac yaranar. Bu isə hazırkı mərhələdə real görünmür. Qeyd olunan istiqamətdə isə mövcud nəqliyyat dəhlizi olduğuna görə tramvay xəttinin çəkilməsi mümkündür".

Y.Mustafayevin fikrincə, bu xəttin çəkilməsi həmin istiqamətdən gələn sərnişinlərin şəhər mərkəzinə çatdırılmasında mühüm rol oynayacaq: "28 May" nəqliyyat qovşağıdır və sərnişinlər buradan şəhərin istənilən istiqamətinə rahatlıqla gedə biləcəklər. Qeyd edilən istiqamətlərdə nə metro, nə də dəmiryolu xətti mövcuddur. Avtobuslar isə müxtəlif marşrutlar üzrə hərəkət edir. Atılan addımın sərnişindaşımaya ciddi töhfə verəcəyi gözlənilir. Sərnişinlərin yalnız avtobusdan istifadə etməməsi tıxacların azalmasına da müsbət təsir göstərəcək".

Nəqliyyat məsələləri üzrə ekspert Adil Nəbiyevin sözlərinə görə, Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair Dövlət Proqramında Mehdiabad tramvay xəttinin prioritet kimi nəzərdə tutulması təsadüfi deyil: "Tramvay xətlərinin tətbiqi ilk növbədə şəhərdə ictimai nəqliyyatın cəlbediciliyini artırır. Tramvay rels üzərində hərəkət etdiyinə görə marşrutu sabitdir, gözlənilməz manevrlər etmir və vaxt itkisi minimuma enir. Bu isə sərnişin üçün daha proqnozlaşdırılan, rahat və psixoloji baxımdan etibarlı səyahət deməkdir. Eyni zamanda tramvay ekoloji cəhətdən daha təmizdir, səs-küyü azdır və böyük sərnişin tutumuna malikdir. Bu xüsusiyyətlər onu şəxsi avtomobilə real alternativə çevirə bilər".

A.Nəbiyev düşünür ki, yeni yaradılacaq xətlərin səmərəliliyi üçün ayrı olması vacibdir: "Bakının mövcud yol strukturu baxımından tramvay seçimi müəyyən şərtlərlə doğru hesab edilə bilər. Şəhərin bir çox əsas prospekt və magistrallarında yolun en kəsiyi kifayət qədər geniş olan hissələr mövcuddur. Düzgün planlaşdırma ilə tramvay xətti ya yolun orta hissəsində, ya da ayrıca ayrılmış zolaqda təşkil edilə bilər. Əsas məsələ tramvayın avtomobil axını ilə qarışmamasıdır, yəni özünə məxsus yol infrastrukturu olmalıdır. Əks halda, o da avtobus kimi tıxacın bir hissəsinə çevrilə bilər. Yəni tramvay Bakıya uyğundur, lakin bu uyğunluq birbaşa düzgün layihələndirmədən asılıdır".

### "METRONUN DA YÜKÜNÜ AZALDACAQ"

A.Nəbiyevin fikrincə, metro ilə müqayisədə tramvayın üstünlükləri və zəif cəhətləri var. Tramvayın əsas üstünlüyü onun daha ucuz və daha qısa müddətdə inşa edilməsidir: "Yeraltı qazıntılara ehtiyac olmadığı üçün həm maliyyə yükü azalır, həm də şəhər uzun illər tikinti əziyyəti çəkmir. Tramvay marşrutlarının genişləndirilməsi və dəyişdirilməsi də metroya nisbətən daha çevikdir. Zəif tərəfi isə sürət və ötürmə qabiliyyətidir. Metro daha sürətlidir və pik saatlarda daha çox sərnişin daşıya bilir. Yəni tramvay metronu əvəz etmir, onu tamamlayır və qidalandırıcı rol oynayır".

A.Nəbiyevin fikrincə, nəqliyyatda mövcud problemlərin həllində tramvayın əsas dəstəyi balans yaratmaqdır: "Bu gün Bakıda əsas problem bütün yükün ya şəxsi avtomobillərin, ya da məhdud sayda ictimai nəqliyyat növlərinin üzərinə düşməsidir. Tramvay yeni bir sütun kimi sistemə daxil olur və yükü bölüşdürür. Xüsusilə şəhərətrafı qəsəbələrdən mərkəzə yönələn gündəlik axının bir hissəsini üzərinə götürə bilsə, avtobusların və minik avtomobillərinin sayı avtomatik azalacaq. Bu da ümumi sistemin nəfəs almasına imkan verəcək. Mehdiabad - "28 May" xəttinin tıxac problemini azaldıb-azaltmaması birbaşa tətbiq modelindən asılıdır. Əgər bu xətt "park et - davam et" prinsipi ilə işləsə, yəni Mehdiabad və ətraf ərazilərdə insanlar avtomobillərini saxlayıb tramvaya minsələr, real təsir göstərmək mümkün olacaq. Əks halda, xətt sadəcə yeni bir marşrut kimi qalarsa, tıxacın azalması məhdud olacaq. Tramvay tıxacı möcüzəvi şəkildə aradan qaldırmır, lakin düzgün inteqrasiya olunarsa, onu ciddi şəkildə zəiflədə bilər".




### "BU HALDA REAL FAYDA VERƏCƏK"

Ekspertin sözlərinə görə, səmərəlilik baxımından tramvay xəttinin yalnız Mehdiabad - "28 May" arasında deyil, yolboyu böyük yaşayış massivlərini, universitetləri, biznes mərkəzlərini və nəqliyyat qovşaqlarını əhatə etməsi vacibdir: "Xüsusilə metro stansiyaları, avtovağzal və əsas avtobus xətləri ilə kəsişmə nöqtələri düzgün seçilməlidir. Bu halda tramvay təkbaşına deyil, vahid nəqliyyat sisteminin bir hissəsi kimi işləyəcək və real fayda verəcək".



# TARİX BANK BİNASININ KÖLGƏSİNDƏ

Görkəmli bəstəkar Əbdül-Müslüm Maqomayevin vaxtilə Lənkəranda yaşadığı ev sökülüb, yerində bank binası tikilib. Bu zaman bəstəkarın vaxtilə burada yaşadığını göstərən xatirə lövhəsi də götürülüb, yenisini qoymaq isə yaddan çıxıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Şirəli Axundov küçəsi Lənkəran şəhərinin əsasən küçələrindəndir. Şəhər mərkəzinə yaxınlığı ilə seçilən küçə ilə üzbəüz "Dostluq parkı", yol boyunca Lənkəran Xan Sarayı, Humanitar kollec, Gənclər mərkəzi, Regional Elmi Mərkəz kimi məşhur obyektlər yerləşir. Şəhər İcra Hakimiyyətinin binası da bu küçədədir.

Vaxtilə bu məşhur küçədə Azərbaycanın görkəmli bəstəkarı, dirijoru və Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi Əbdül-Müslüm Maqomayev yaşayıb. O, görkəmli opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin babasıdır. Böyük bəstəkar 1905-ci ildən 1911-ci ilədək pedaqoji və musiqi fəaliyyətini Lənkəranda davam etdirib. O, Lənkərandakı dördsinifli şəhər məktəbində, 1 nömrəli orta məktəbdə müəllimlik edib, həmçinin nəfəsli alətlər orkestri, xor, eləcə də balalayka ansamblı təşkil edib. Bəstəkar 75 nəfərlik orkestrə dirijorluq etməklə yanaşı, bacanağı Üzeyir Hacıbəyliyə Lənkəranda yayılmış yerli xalq mahnılarının toplanmasında da köməklik göstərib.

Əbdül-Müslümün Lənkərandakı fəaliyyəti mədəniyyətin inkişafına mühüm töhfələr verib. Lənkəran teatr qrupunun Azərbaycan və rus dilində çıxışları "Bakı" qəzetinin "Müsəlman həyatı" məqaləsində xüsusi qeyd olunub.

Xatırladaq ki, 1936-cı ildə Bakıda yaranan Dövlət Filarmoniyası da Müslüm Maqomayevin adını daşıyır.

### XIX ƏSRƏ MƏXSUS TAXTA EV

Böyük bəstəkarın yaşadığı balaca, tarixi ev də yaşlı nəsil lənkəranlıların yaxşı yadındadır. Bəstəkarın yaşadığı evə vurulan "Bu evdə görkəmli bəstəkar Müslüm Maqomayev yaşamışdır (1906 - 1911)" sözləri yazılan xatirə lövhəsini də çox adam unutmayıb. Təəssüf ki, indi həmin taxta evdən əsər-əlamət qalmayıb. Xatirələrlə və mədəniyyətimizə töhfələrlə dolu o balaca evin yerində özəl banklardan birinin yeni, müasir binası ucalır. Ətrafda böyük bəstəkarın vaxtilə bu ərazidə yaşamasını göstərən nə bir xatirə lövhəsi, nə də barelyef var. Yerlə yeksan edilib sökülən ev kimi, sanki bəstəkarın xatirəsi də silinib. Kommersiya maraqları XIX əsrə məxsus evin, o cümlədən milli və mədəni dəyərlərin üzərindən xətt çəkərək izini də saxlamayıb.

Təəssüf ki, heç bir qurum – nə böyük bəstəkarın yaşadığı evin yerində fəaliyyət göstərən bank, nə abidələrin qorunmasına cavabdeh kimi Mədəniyyət Nazirliyi, nə də Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti heç olmasa xatirə lövhəsinin əraziyə qaytarılması üçün təşəbbüs göstərib.




## BANK İCRA ORQANLARINDAN MÜRACİƏT GÖZLƏYİR

Məsələ ilə bağlı ərazidə özünə bina ucaltmış banka müraciət etdikdə sorğumuza cavab olaraq bildirildi ki, xatirə lövhəsinin qoyulması yaxın qohumların təşəbbüsü, müvafiq İcra Hakimiyyəti orqanın razılığı və göstərişi ilə təmin edilməlidir: "İcra orqanından müvafiq müraciət banka daxil olduğu təqdirdə, məsələyə tərəfimizdən baxılacaqdır".

### MƏDƏNİYYƏT NAZİRLİYİ: "BU MƏSƏLƏ NAZİRLİYİN SƏLAHİYYƏTLƏRİ XARİCİNDƏDİR"

Mədəniyyət Nazirliyinə ünvanladığımız məktuba Aparat rəhbərinin müavini - sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri Elçin Nəcəfovun adından verilən yazılı cavabda qeyd edildi ki, Prezidentin 2009-cu il 19 avqust tarixli 444 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisində yerləşən monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq komplekslərinin ümumi görkəminin qorunub saxlanılması və ətrafının abadlaşdırılmasına dair Tədbirlər planı"na uyğun olaraq, Mədəniyyət Nazirliyi tərəfindən yaradılmış Ekspert Komissiyası yalnız heykəltəraşlıq abidələrinin yüksək sənət meyarlarına, bədii yaradıcılıq, estetik tələblərə və ümumi görkəmə uyğunluğuna dair rəy verir: "Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"yə əsasən barelyefin quraşdırılmasına razılığın verilməsi nazirliyin səlahiyyətləri xaricindədir".

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəis müavini Rauf Axundovdan da oxşar cavabı aldıq: "Məsələyə münasibət bildirilməsi səlahiyyətimiz xaricindədir".

### İCRA HAKİMİYYƏTİ BARELYEFIN QOYULACAĞINI VƏD EDİR

Lənkəran şəhər İcra hakimiyyətinə ünvanladığımız sorğunun cavabında isə İctimai-siyasi və humanitar məsələlər sektorundan bildirildi ki, ərazidə barelyefin qoyulması təşəbbüsü təqdirəlayiqdir: "Məktubunuz icra hakimiyyətinin başçısına təqdim olunub. Cənab başçı görkəmli bəstəkarın memorial lövhəsinin qoyulması ilə bağlı tədbirlərin görülməsi və bəstəkarın yaşadığı küçədə xatirəsini əks etdirən lövhənin qoyulması ilə bağlı tapşırıq verib. Hazırda xatirə lövhəsinin hazırlanması ilə bağlı sifariş verilib". İH rəsmisinin sözlərinə görə, hazırlıq işləri bir qədər vaxt aparacaq: "Bu işləri həyata keçirməyə bir az vaxt lazım olacaq. Lövhənin vurulacağı yerdə abadlıq işləri də görüləcək. Hesab edin ki, bu məsələ artıq müsbət həllini tapıb".

### HƏR BİR VƏTƏNDAŞI NARAHAT ETMƏLİ OLAN MƏSƏLƏ

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov qeyd etdi ki, əslində bu cür məsələlər hər bir vətəndaşı narahat etməlidir: "Təəssüf ki, ümumilikdə abidələrin bərpası işinə nəzarət zəifdir. Abidələr sökülür, dağıdılır, yerində müxtəlif obyektlər tikilir. Görkəmli bəstəkarın yaşadığı ərazidə də onun barelyefi və ya xatirə lövhəsi vurula bilərdi. Ev sökülübsə və yerində bank fəaliyyət göstərirsə belə, ərazidə Müslüm Maqomayevin orada yaşaması ilə bağlı bir xatirə qorunub saxlanmalı idi. Bu, vacibdir. Yoxsa belə laqeyd münasibət mədəni dəyərlərimizin dağılmasına gətirib çıxarır..."



PREZİDENT MÜKAFATÇISI: “YA SEVDİYİNİZ İŞLƏ MƏŞĞUL OLMALISINIZ, YA DA MƏŞĞUL OLDUĞUNUZ İŞİ SEVMƏLİSİNİZ”

# “NİYƏ” SUALI İLƏ HƏYATI DƏYİŞƏN AZƏRBAYCANLI GƏNC



SÖHBƏTLƏŞDİ
AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az


**Mahmud İsmayılov:** “Prezident mükafatına layiq görüldüyümü öyrəndiyim gün işdə idim. Səhifələri yeniləyirdim və Prezidentin sərəncamını gördüm. Siyahıda gənclərin adını qürurla oxuyurdum, çünki bir neçə gənci də tanıyırdım. Siyahıda öz adımı oxuyanda isə çox qəribə oldum, əllərim titrədi”.



Onun adı bu il Prezident mükafatına layiq görülən 10 gənc arasında çəkilir. Uğurunun sirrini isə özünə verdiyi suallarda görür. Deyir ki, “bakalavr pilləsini bitirəndə elə bilirdim ki, çox şey bilirəm. Magistraturada az bildiyimi anladım, doktoranturada isə dərk etdim ki, dünya olaraq hələ öyrənməli çox şeyimiz var”. Müsahibimiz Prezident mükafatçısı Mahmud İsmayılovdur.

O, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Mexanika kafedrasında müəllim və “Maşınlar, avadanlıqlar və proseslər” ixtisası üzrə doktorantdır. O, universitetin SABAH qruplarında mexanika mühəndisliyi üzrə bakalavr və magistraturanı fərqlənmə diplomu ilə bitirib, hazırda dənizdə üzən külək turbin platformalarının layihələndirilməsi sahəsində elmi tədqiqatlar aparır. Həmsöhbətimiz, həmçinin TEKNOFEST Azərbaycan robototexnika yarışının qalibi, IDDA & KOICA proqramının ən yaxşı təlimçisi, 13 elmi məqalə müəllifidir.



## “ELM “NİYƏ?” İLƏ BAŞLAYIR”

● **Mahmud bəy, uşaqlıqdan elmlə məşğul olmağı arzuladığınızı deyirsiniz. Axı uşaqların arzusu fərqli olur. Bu marağın kökündə nə dayanırdı?**

● Uşaqlıqdan “niyə?” sualını çox verirdim. O qədər “niyə?” deyirdim ki, bəzən valideynlərim bu suallara cavab tapmaqda çətinlik çəkirdi. Ətrafda baş verən hadisələr, mövcud olan əşyalar, səbəblər və nəticələr, hər şey mənə maraqlı idi. İlk baxışdan suallarım hər uşağın sualları kimi sadə görünsə də, əslində, onların arxasında böyük elm dayanır. Əgər bu suallara həqiqətən dərindən cavab vermək istəsək, görərik ki, hər şey elmlə izah olunur. Elm mənim üçün həyatda olan bütün sualların cavabını axtarmağa imkan verən alətdir. Elmə olan marağım da həyatı öyrənmək sevgisindən qaynaqlanırdı.

● **Hər uşaq “niyə” sualını verir, amma zamanla bu maraq azalır. Siz nə vaxt dərk etdiniz ki, verdiyiniz “niyə” suallarının arxasında məhz elm dayanır?**

● İlk dəfə 6 yaşım olanda atam mənə disk hədiyyə etdi. Diskdə astronomiya ilə bağlı dünyanın hərəkəti, Günəş sistemi, planetlər, onların necə kəşf olunması və bu prosesləri araşdıran alimlər haqqında çox maraqlı məlumatlar var idi. Qaliley və Nyutonun adlarını da ilk dəfə o diskdə gördüm. Məni ən çox düşündürən sual bu idi ki, bu insanlar özlərinə hansı sualı veriblər və bu kəşfləri ediblər. Bəzilərinin cavabını tapmışam, bəziləri isə hələ də mənimlədir. Zamanla anladım ki, bütün böyük alimləri birləşdirən ortaq cəhət var: maraq, öyrənmək istəyi və “niyə?” sualını vermək cəsarəti. Əslində, elm “niyə?” ilə başlayır. Bu sualı verdikcə dayanmaq olmur, çünki cavab tapdıqca yeni suallar yaranır. Anladım ki, nə qədər çox “niyə?” soruşsaq, bir o qədər həyatı dərk etmiş olarıq.



## “UĞURA BAŞLAMAĞIN TƏMƏLİ ÖZ ACİZLİKLƏRİNİ DƏRK ETMƏKDƏN KEÇİR”

● **Təhsildəki uğurlarınızın səbəbini ilk uğursuzluğunuzda görürsünüz. Maraqlıdır, həmin uğursuzluq nə idi?**

● Bəli. Bu, gənclər üçün motivasiya olar. Ali təhsildə hər üç pilləni fərqlənmə ilə bitirsəm də, məktəb vaxtı yaxşı oxumurdum. Çalışırdım, amma kifayət qədər deyil. Marağım daha çox texniki fənlərə olduğundan, məktəbdə tədris olunan ümumi fənlər diqqətimi çəkmirdi. Bu səbəbdən birinci il qəbul imtahanından kəsildim. Mexanika mühəndisi olmaq istəyirdim, çünki maraq göstərdiyim alimlərin həyat və yaradıcılığı məni bu istiqamətə yönəltmişdi. İmtahandan kəsilməyimin səbəbi isə öz tənbəlliyim idi. Çox insan bunu deməyə cəsarət etmir, amma uğura başlamağın təməli öz acizliklərini dərk etməkdən keçir. Mənim üçün bu, həyatımda aldığım ən böyük dərs oldu. Öz-özümə sual verirdim ki, niyə uğursuzluqla üzləşdim? Cavab bəzən acı olsa da, onu dürüstcə qəbul etmək və səbəbini başa düşmək lazımdır. Anladım ki, həyatdakı uğursuzluqların əsas səbəbi insanların reaksiyaları, davranışları, qərarları və niyyətləridir. Yəni hər şey bizim seçimlərimizdən və yanaşmamızdan başlayır. İkinci il hazırlığa başlayanda artıq bu dərsi almışdım və daha da həvəslə çalışdım. Bu dəfə yalnız universitetə qəbul olmaq üçün yox, əslində “niyə?” sualına cavab tapmaq üçün hazırlaşırdım. “Mən bunu niyə öyrənirəm və mənə niyə lazımdır?” sualı ilk uğurumu qazandırdı, arzuladığım ixtisasa qəbul oldum. Başa düşdüm ki, uğur yalnız çalışmaqdan deyil, niyyətin düzgün və məqsədin aydın olmasından asılıdır.

● **Ali təhsilinizin bütün pillələrini Azərbaycanda, ADNSU-da tamamlamısınız və hətta SABAH qruplarından fərqlənmə diplomu ilə məzun olmusunuz. Bu karyeranıza necə təsir edib?**

● Bakalavr dövründə müəyyən çətinliklərlə üzləşdim. Rus bölməsindən Azərbaycan bölməsinə keçdiyim üçün texniki terminlərdə çətinlik yaşayırdım. Lakin ana dilimdə təhsilimi davam etdirmək qərarı mənim üçün prinsipial məsələ idi. İkinci kursdan etibarən təhsilimi SABAH qruplarında davam etdirdim. Yataqxanada uğurlu gənclərlə birlikdə qalmağımın böyük faydası oldu. Onların 9-10 saat kitabxanada çalışdığını görürdüm. Belə insanları görəndə istər-istəməz sən də onlara qoşulursan. Görürdüm ki, onların uğurunun arxasında yalnız zəhmət, düzgün yanaşma və gördükləri işə sevgi dayanır. İnsan çalışdıqca və zəhmət çəkdikcə nəticə əldə edir. Bəli, universiteti fərqlənmə ilə bitirmişəm. Amma mənim üçün “fərqlənmə” anlayışı yalnız qırmızı diplomla məhdudlaşmır. Diplom sadəcə təsdiqedici sənəddir, əsas hədəf fundamental biliklər toplamaqdır. İş həyatına başlayanda anladım ki, universiteti yüksək göstərici ilə bitirmək işdə hər şeyi bildiyimiz anlamına gəlmir. Eyni zamanda onlayn və beynəlxalq layihələr üzərində işləyirdim və gördüm ki, daim öz üzərimizdə çalışmalıyıq. Magistraturada bu yanaşmanı daha da gücləndirdim, beynəlxalq çağırışlara uyğunlaşmağa çalışdım. Tələbələrimə deyirəm ki, bakalavrı bitirəndə elə bilirdim ki, çox şey bilirəm. Magistraturada az bildiyimi anladım, doktoranturada isə dərk etdim ki, dünya olaraq hələ öyrənməli çox şeyimiz var. Elmi yol mənim üçün bu axtarışın ən doğru yoludur.

*“Elm mənim üçün həyatda olan bütün sualların cavabını axtarmağa imkan verən alətdir. Elmə olan marağım da həyatı öyrənmək sevgisindən qaynaqlanırdı.”*

● **Fəaliyyətiniz tək öyrənmək və araşdırmaqla yekunlaşmır. Siz həm də TEKNOFEST Azərbaycan robototexnika yarışının qalibisiniz.**

● Bir layihə üzərində işləmək istədim, amma alınmadı. Hiss etdim ki, bacarmayacağam və bu, məni məyus etdi. Elə həmin gün bakalavr tələbələri mənə yazdılar ki, gəlin birlikdə TEKNOFEST-ə qoşulaq, siz bizə mentor olun. O zaman magistratura tələbəsi idim. Dedim ki, mentor olmaq yox, gəlin komanda üzvü olum. Beləliklə, dostum və bakalavr tələbələri ilə birlikdə yarışmaya qatıldıq. Bu yarışda əsas məqsədimiz qalib olmaqdan daha çox, üzərimizə götürdüyümüz işi ən yaxşı şəkildə görmək idi. TEKNOFEST-in mənə ən böyük qatqısı maraqlı və real bir layihə üzərində işləmək imkanı oldu. Orada anladım ki, gənclərlə birlikdə hər şeyi etmək mümkündür. Düşünürdük və dərhal reallaşdırmağa çalışırdıq. Ağlımıza gələn hər ideyanı həyata keçirməyə cəhd edirdik. Başa düşdüm ki, gənclərlə hər şey mümkündür, sadəcə çalışmaq, inanmaq və istəmək lazımdır. TEKNOFEST mənə yalnız bilik yox, həm də bacarıq qazandırdı. Öyrəndiklərimi isə sonradan iş həyatımda tətbiq etdim.



## “SEVİNCİMDƏN YATA BİLMİRDİM”

● **Bu il Prezident mükafatına layiq görülən 10 gəncdən birisiniz. Öyrəndiyinizdə ilk reaksiyanız necə oldu?**

● Mükafata layiq görüldüyümü öyrəndiyim gün işdə idim. Səhifələri yeniləyirdim və Prezidentin sərəncamını gördüm. Siyahıda gənclərin adını qürurla oxuyurdum, çünki bir neçə gənci də tanıyırdım. Onların adını gördükcə, sevinir, həyəcanlanırdım. Siyahıda öz adımı oxuyanda isə çox qəribə oldum, əllərim titrədi. Heç vaxt ağlıma gəlməzdi ki, belə bir mükafat alacağam. Çox gözlənilməz oldu mənim üçün. Təbii ki, böyük qürur və sevinc hissi idi. Daha sonra təbriklər və zənglər gəlməyə başladı. Sevincdən işə fokuslana bilmirdim. İlk xəbəri yoldaşım və valideynlərimlə paylaşdım. Bu, çox sevincli bir hissdir və insan onu tam ifadə edə bilmir. Həmin an emosiyalar qarışıq olur. Hətta sabahı və ertəsi günü də sevincimdən yuxuya gedə bilmədim.






## “İnsan işinin məcnunu olmalıdır”

● **Bu mükafat sizin üçün nə deməkdir - motivasiya, tanınma, yoxsa ikiqat məsuliyyət?**

● İlk növbədə çox böyük məsuliyyətdir. Onsuz da hər zaman üzərimdə məsuliyyət hiss etmişəm. Mənə görə bütün nailiyyətlər etimaddır. İstər diplomlarım, istər TEKNOFEST-də qələbəmiz olsun, hər biri üzərimizə öhdəlik qoyur. Bu mükafat isə məsuliyyətimi beşqat artırdı. Hazırda daha çox düşünürəm və bu məsuliyyətin yaratdığı yükü daha aydın hiss edirəm. Əlbəttə, həm də mənim üçün böyük motivasiyadır. Gördüyümüz işlərin Prezident tərəfindən dəyərləndirilməsi inanılmaz hissdir. Eyni zamanda bu, nəinki mənim ətrafımdakı insanların, dəstək olanların, məni tanıyanların və tələbələrimin də motivasiyasını artırdı. Həmişə onlara deyirəm ki, zəhmət və çalışma uğura aparır. Uğurun əsas tərkib hissələrindən biri isə işə sevgi ilə yanaşmaqdır. Sevgi yoxdursa, nə qədər zəhmət çəkilsə də, nəticə alınmır. Bu mükafat mənim üçün yekun deyil, başlanğıcdır. Qarşıma daha böyük hədəflər qoyub, elm sahəsində beynəlxalq töhfələr verməyə çalışacağam.

● **ADNSU-da müəllim kimi fəaliyyət göstərirsiniz. Elmi tədqiqatlarınız və beynəlxalq layihələrdəki təcrübəniz dərslərinizə necə təsir edir?**

● Müəllimlik fəaliyyətim dövründə beynəlxalq layihələrdə iştirak etmişəm. Həm tədris-pedaqoji, həm də elmi layihələrdə çalışmışam. Beynəlxalq layihələrdən biri NATO SPS qrantıdır, burada hidrogen batareyaları üzərində işləmişik. Bundan başqa, Birləşmiş Ərəb Əmirlikləri universiteti ilə universitetimiz arasında bir qrant həyata keçirilirdi, orada qalib olmuşam və qranta rəhbərlik edirəm. Hazırda universitetdə dənizdə üzən platformalara düşən yükləri təyin etmək üçün qurğu hazırlayırıq. Digər bir qrant isə termal enerji sahəsi ilə bağlıdır. Təbii ki, bu təcrübə müəllimlik fəaliyyətimə böyük təsir göstərir. Artıq tələbələrimi də həvəsləndirirəm. Dərs demək müəllimliyin görünən hissəsidirsə, elmi fəaliyyət onun əsas hissəsidir. Elmi tədqiqatlar, araşdırmalar, məqalələr, beynəlxalq konfranslar müəllimliyin ən gözəl tərəfləridir. Tələbələri həvəsləndirir, məlumatlandırır və yenilikləri öyrədərək onları da qrantlara cəlb edirəm. Birlikdə çalışırıq və tələbələrimlə qürur duyuram. Layihələr üzərində işləyərkən onların gözündəki parıltını görsəniz, nə demək istədiyimi anlayarsınız.

● **Yaşınızın az olmasına baxmayaraq, artıq Prezident mükafatı, TEKNOFEST qalibliyi və beynəlxalq qrant layihələrinə rəhbərlik kimi ciddi nailiyyətləriniz var. Bu uğurun sirri nədir?**

● Ya sevdiyiniz işlə məşğul olmalısınız, ya da məşğul olduğunuz işi sevməlisiniz. Üçüncüsü yoxdur, varsa da, əziyyətdir. Sevdiyiniz işi görmək heç vaxt əziyyət deyil. Bu sevgi, işinizi başqalarına göstərmək, tərif almaq və ya qiymət qazanmaq üçün olmamalıdır. İşinizi saf şəkildə sevməlisiniz. Bunu başa düşsəniz, hansı sahədə olursunuzsa olun, uğur qazanacaqsınız. İşinizi sevməsəniz, yarımçıq qalarsınız. Bəzən 20 saat, hətta bir sutka yuxusuz işləyirsən, amma sevgi varsa, hər şey asan olur. İnsan işinin vurğunu, məcnunu olmalıdır.

# BAKIDA MƏKTƏBDƏ SİLAHLI İNSİDENT

Binəqədi rayonu ərazisində yerləşən məktəblərdən birində şagird tərəfindən odlu silahdan atəş açılmaqla müəllimə xəsarət yetirilib. Güllələnən müəllim xəstəxanaya yerləşdirilib və əməliyyat olunub.




**Foto:** Rüfət Mikayılov /Global Media Group

Bakıda yerləşən "İdrak" liseyində silahlı insident baş verib. Liseyin müəllimi 10-cu sinif şagirdi Ə.Ş. tərəfindən atasına məxsus ov silahı ilə güllələnib. Yaralanan şəxs 1997-ci il təvəllüdlü Şəhla Kamilovadır. Hadisə tənəffüs vaxtı baş verib.

### BAŞ PROKURORLUQDAN AÇIQLAMA

Baş Prokurorluq Bakıda liseydə şagirdin müəllimi güllələməsi ilə bağlı məlumat yayıb. Bildirilir ki, fevralın 6-da paytaxtın Binəqədi rayonu ərazisində yerləşən məktəblərdən birində şagird tərəfindən odlu silahdan atəş açılmaqla müəllimə xəsarət yetirilməsi faktı ilə bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır. Hadisəni törətməkdə şübhəli bilinən şagird prokurorluq tərəfindən tutulub. Prokurorluq əməkdaşları hadisə yerinin baxışını keçirib, eləcə də hadisənin başvermə şəraiti və səbəblərinin dəqiqləşdirilməsi istiqamətində zəruri prosessual hərəkətləri icra ediblər.

### GÜLLƏ MÜƏLLİMİN BOYUN NAHİYƏSİNƏ DƏYİB

Şahidlərin verdiyi məlumata əsasən, güllə müəllimin boyun nahiyəsinə dəyib. "Report"un əldə etdiyi məlumata əsasən, güllə atan şagirdin atası Şirinov Samir əvvəllər Sumqayıt Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Təsərrüfat Birliyində rəis müavini vəzifəsində işləyib, hazırda işsizdir.

## Müəllimin durumu orta-ağırdır



Güllələnən riyaziyyat müəlliminin durumu orta ağırdır. Bu barədə Oxu.Az-a Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzindən və Kliniki Tibbi Mərkəzdən məlumat verilib. Məlumatda qeyd olunub ki, dünən saat 09:10-da "İdrak" liseyindən çağırış qeydə alınıb: "Çağırış ünvanına təcili tibbi yardım briqadası cəlb olunub. Təcili tibbi yardım briqadası tərəfindən 1997-ci il təvəllüdlü şəxs (qadın) Kliniki Tibbi Mərkəzə hospitalizasiya olunub. Odlu silahdan açılan atəşlə zədələnmə diaqnozu təyin edilən pasiyentə zəruri tibbi xidmətlər göstərilib, müvafiq laborator və instrumental müayinələr aparılıb. Onun müalicəsi Cərrahiyyə şöbəsində davam etdirilir, vəziyyəti orta ağırdır".

Liseyin rəhbəri Mönsüm Alışov "Unikal"a açıqlamasında hadisə barədə danışıb: "Şagird ov tüfəngini liseyə məktəb çantasında gətirib. Hadisə ehtiyatsızlıqdan baş verib".




# SOCAR aparıcı neft-qaz şirkətləri sırasında

Beynəlxalq reytinq agentliyi "Fitch Ratings" korporativ reytinq meyarlarını və sahə naviqatorlarını yenilədikdən sonra Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) daxil olmaqla 11 neft-qaz şirkətinin kredit reytinqlərini təsdiqləyib. "Report"un "Fitch"ə istinadən verdiyi xəbərə görə, reytinqləri təsdiqlənən şirkətlər sırasına "QatarEnergy", "Saudi Aramco", BP, OMV, "Repsol", EDO, OQ, "KazMunayGas", "Romgaz" və "Uzbekneftegaz" da daxildir. Yenidən baxılma çərçivəsində "Fitch" SOCAR-ın müstəqil kredit profilini (SCP) Korporativ Reytinq Alətindən (Corporate Rating Tool - CRT) istifadə etməklə qiymətləndirib. Təhlilin nəticələrinə əsasən, SOCAR-ın SCP-si "bb-" səviyyəsində müəyyən edilib. SOCAR-ın biznes və maliyyə profili aşağıdakı kimi qiymətləndirilib: idarəetmə - "bb", sahə xüsusiyyətləri - "bb+", bazar və rəqabət mövqeyi - "bbb-", şaxələndirmə və aktivlərin keyfiyyəti - "bb+", əməliyyat xüsusiyyətləri - "bb", mənfəətlilik - "bbb", maliyyə strukturu - "b-", maliyyə çevikliyi - "b+". Kəmiyyət maliyyə göstəriciləri fərdi CRT parametrləri nəzərə alınmaqla hesablanıb. Burada çəkinin 10%-i 2024-cü ilin faktiki göstəricilərinə, 10%-i 2025-ci ilin proqnozuna, hər biri 30% olmaqla 2026 və 2027-ci illərin proqnozlarına, 20%-i isə 2028-ci ilin proqnozuna aid edilib.

"Fitch" SOCAR-ın korporativ idarəetməsini "yaxşı", əməliyyat mühitini isə "bb-" səviyyəsində qiymətləndirib. Hər iki göstərici reytinq üzrə əlavə düzəlişə səbəb olmayıb. Emitentin uzunmüddətli defolt reytinqi (IDR) müəyyən edilərkən dövlət şirkətləri üçün nəzərdə tutulmuş reytinq meyarları (Government-Related Entities - GRE) bərabərləşdirilmiş yanaşma əsasında tətbiq edilib.

# "NAR" "GƏNCVİZYON" LAYİHƏSİNƏ START VERİR

Sərfəli mobil operator "Nar" Azərbaycan Gənclər Fondunun təşkil etdiyi, Gənclər Gününə həsr olunmuş "GəncVİZYON" ideyatonunun əsas tərəfdaşı qismində çıxış edəcək. Gənclərin düşüncə potensialının inkişafını və gələcəyə dair ideyalarının formalaşdırılmasını hədəfləyən layihə Azərbaycan gənclərini bir araya gətirərək onların bilik və bacarıqlarını nümayiş etdirməsi üçün imkan yaradır. "GəncVİZYON" gənclərin ideyalarını konseptual səviyyədə formalaşdıraraq təqdim etməsi üçün açıq və yaradıcı platforma rolunu oynayır. Layihə çərçivəsində iştirakçılar komandalar şəklində gələcəyin təhsili və bacarıqlar, gənclərin məşğulluğu və sahibkarlıq, rəqəmsal gələcək və süni intellekt, sosial təşəbbüslər və könüllülük, eləcə də yaşıl və dayanıqlı gələcək kimi istiqamətlər üzrə ideyalar üzərində çalışacaq, mentorların dəstəyi ilə bu ideyaları inkişaf etdirərək münsiflər heyətinə təqdim edəcəklər. 18–29 yaş arası gənclərin iştirak etdiyi ideyatonun ideyaların formalaşması mərhələsi 4 fevral tarixində Bakı Konqres Mərkəzində baş tutacaq, final mərhələsi isə 6 fevralda keçiriləcək. Tədbir gənclərə komanda işi bacarıqlarını inkişaf etdirmək, peşəkar mentorlarla birbaşa ünsiyyət quraraq onların təcrübəsindən faydalanmaq və yaradıcı mühitdə öz baxışlarını təqdim etmək imkanı verəcək. "Nar"ın bu layihəyə əsas tərəfdaş kimi qoşulması şirkətin korporativ sosial məsuliyyət strategiyasının mühüm tərkib hissəsidir. Mobil operator bu kimi təşəbbüslərlə gənclərin cəmiyyətin və ölkənin gələcək inkişafında fəal rol almasını dəstəkləyərək inklüziv və davamlı sosial mühitin formalaşmasına töhfə verməyi qarşısına məqsəd qoyur.




Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
Təsisçi
**Global Media Group**
Baş redaktor
**İlham Quliyev**
Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**
Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**
Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**
Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 197
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

İDXALIN ARTMASI YERLİ FERMERLƏR ÜÇÜN DƏ MÜƏYYƏN RİSKLƏR YARADIR

# SÜFRƏLƏRDƏ ÇOXDUR, BAĞLARDA AZ

Son bir ildə portağal idxalı həm həcm, həm də dəyər baxımından artıb. Bazarın 70 faizdən çoxu hələ də İrandan gətirilən məhsulun payına düşür. Mütəxəssislər yerli istehsalın məhdudluğu fonunda idxalın qaçılmaz olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Ötən ilin yanvar-oktyabr aylarında Azərbaycan 12,13 milyon ABŞ dolları dəyərində 14 min 539 ton portağal idxal edib. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 13 faiz, kəmiyyət baxımından isə 22 faiz çoxdur. Hesabat dövründə Azərbaycan İrandan 7,56 milyon dolları dəyərində 10 min 80 ton portağal idxal edib ki, bu da əvvəlki illə müqayisədə dəyər baxımından 21 faiz, kəmiyyət baxımından isə 27 faiz azalma deməkdir. Cənubi Afrika Respublikasından idxal dəyər ifadəsində 68 faiz artaraq 2,1 milyon dollara, kəmiyyət baxımından isə 65 faiz artaraq 1 min 856 tona çatıb. Misirdən idxalın dəyəri 13 faiz artaraq 1,78 milyon dollar təşkil etsə də, kəmiyyət baxımından 11 faiz azalaraq 1 min 615 ton olub. Türkiyədən portağal idxalı həm dəyər, həm də kəmiyyət baxımından 41 faiz azalaraq müvafiq olaraq 684,52 min dollar və 977,4 ton təşkil edib. Çindən idxal isə dəyər ifadəsində 20 dəfə, kəmiyyət baxımından 267 dəfə artıb və faktiki həcm cəmi 5,33 ton olub. Ümumilikdə 2024-cü ildə Azərbaycana idxal edilmiş 23,2 min ton portağalın 74,6 faizi İranın payına düşüb.

**NİYƏ İDXALDAN ASILIYIQ?**

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, portağal idxalının artımına daxili istehlakın artması, əhalinin sağlam qidalanmaya marağının yüksəlməsi, sitrus meyvələrinin ilboyu tələbat məhsuluna çevrilməsi, yerli istehsalın mövsümi və məhdud olması, eləcə də saxlama və logistika infrastrukturunun zəifliyi ilə bağlıdır. Bəzi hallarda idxal məhsullarının yerli məhsuldan daha ucuz başa gəlməsi də bazarda idxala üstünlük verilməsinə səbəb olur: “Portağal idxalının əsas hissəsi ənənəvi olaraq İranın payına düşür. İrandan idxal olunan məhsulun həcmi əvvəlki ilə nisbətən 27 faiz azalsa da, bu ölkə hələ də Azərbaycanın portağal bazarında əsas təchizatçı mövqeyini qoruyur. Bu da bazar təhlükəsizliyi baxımından riskli hesab olunur. İdxal strukturunda diqqətçəkən dəyişikliklərdən biri Cənubi Afrika Respublikasından portağal idxalının kəskin artmasıdır. Artım əsasən mövsümi amillərlə izah olunur. Cənubi yarımkürədə portağalın yığım dövrü Azərbaycanın bazarda istehlakın yüksəldiyi vaxtla üst-üstə düşür. Bundan əlavə, Cənubi Afrika məhsullarının keyfiyyəti və uzunməsafəli daşınmalara davamlılığı idxalçıların bu bazara marağını artırır. Misirdən portağal idxalı dəyər baxımından artsa da, kəmiyyət baxımından azalıb ki, bu da məhsulun orta qiymətinin yüksəlməsi və daha keyfiyyətli sortlara üstünlük verilməsi ilə əlaqələndirilir. Türkiyədən idxalın həm həcm, həm də dəyər baxımından azalması isə bu ölkədə daxili tələbatın artması, istehsal xərclərinin yüksəlməsi və ixracın alternativ bazarlara yönəldilməsi ilə izah olunur. Statistikada ən çox diqqət çəkən məqamlardan biri Çindən portağal idxalının 267 dəfə artmasıdır. Lakin bu göstərici ilk baxışda böyük artım təsiri bağışlasa da, faktiki həcm cəmi 5,33 ton təşkil edir. Bu artım əsasən sınaq xarakterli idxal, spesifik sortlara maraq və alternativ təchizat mənbələrinin test edilməsi ilə bağlıdır. Praktik baxımdan Çin hələlik Azərbaycan üçün portağal bazarında ciddi paya malik deyil”.




**“DAXİLİ İSTEHSAL ÜMUMİ TƏLƏBATIN 20 FAİZİNİ ÖDƏYİR”**

N.Əzizlinin fikrincə, hazırkı şəraitdə Azərbaycanda portağal üzrə daxili istehsal ümumi tələbatın təxminən 20 faizini ödəyə bilir: “Portağal əsasən Lənkəran-Astara bölgəsində yetişdirilsə də, əkin sahələrinin məhdudluğu, intensiv bağçılıq texnologiyalarının zəif tətbiqi və məhsuldarlığın aşağı olması istehsalın genişlənməsinə mane olur. Bu isə bazarda idxaldan asılılığı artırır. İdxalın artması yerli fermerlər üçün də müəyyən risklər yaradır. Ucuz idxal məhsulları ilə rəqabət aparmaq çətinləşir, bazara çıxış imkanları məhdudlaşır və istehsalın gəlirliliyi azalır. Xüsusilə subsidiya mexanizmləri və bazarın qorunması yetərli olmazsa, bu, fermerlərin sitrusçuluğa marağının azalmasına səbəb ola bilər. Azərbaycanın cənub bölgələri portağal istehsalı üçün nisbətən əlverişli iqlim və torpaq şəraitinə malikdir. Lakin şaxta riski, torpaq duzluluğu, yüksək rütubət və xəstəliklər bu sahəni riskli edir. Bu səbəbdən portağal istehsalı yüksək texnologiyaların tətbiqini, elmi yanaşmanı və sığorta mexanizmlərini tələb edir”.

**PORTAĞAL İDXALI**

**2025-Cİ İL YANVAR-OKTYABR**

**DƏYƏR**
**12,13 milyon $**

**HƏCM**
**14 min 539 ton**



## “PORTAĞALA TƏLƏBAT ARTIB”




İqtisadçı-ekspert Asif İbrahimov da düşünür ki, əvvəllər portağal hər evdə geniş istifadə olunan məhsul olmasa da, hazırda ona olan tələbat artıb. Bu, həm də meyvə şirələrinin hazırlanmasında portağaldan daha çox istifadə olunması ilə bağlıdır. Bu səbəbdən idxal qaçılmazdır: “Portağal tez xarab olan məhsul olduğu üçün çəki itirmə və quruma riski yüksəkdir. Yaxın məsafə logistika baxımından İranı əsas təchizatçıya çevirir və bazarın təxminən 70-80 faizi bu ölkənin payına düşür. İranda hər hansı problem yarandıqda isə idxalçılar alternativ ölkələrə üz tuturlar. Dünya üzrə əsas portağal ixracatçıları Misir və Cənubi Afrika Respublikasıdır. Bu ölkələrin məhsulları həm görünüş, həm də qiymət baxımından rəqabətqabiliyyətli sayılır”.

A.İbrahimov bildirib ki, sitrus meyvələri ölkəmizdə əsasən cənub bölgəsində yetişdirilir. Həmin ərazilərdə daha çox mandarin, feyxoa, limon və çay plantasiyalarına üstünlük verilir: “Portağal istehsalının geniş yayılmamasının əsas səbəbi torpaq sahələrinin məhdudluğu və məhsulun gec bar verməsidir. Belə ki, portağal ağacı 4-6 ildən sonra məhsul verir və bu da fermer üçün iqtisadi baxımdan sərfəli hesab olunmur. Buna görə də fermerlər daha tez gəlir gətirən məhsullara, məsələn, limona üstünlük verirlər. Bu səbəblərdən dövlət dəstəyi olsa belə, yaxın perspektivdə portağal üzrə daxili istehsalın kəskin şəkildə artması real görünmür”.

KARTDAN-KARTA PUL KÖÇÜRMƏLƏRİ SAHƏSİNDƏ YENİ MƏRHƏLƏ BAŞLAYIB

# PUL KÖÇÜRMƏLƏRİ DAHA TƏHLÜKƏSİZ OLACAQ




Ani Ödənişlər Sisteminə keçid yalnız texniki bir dəyişiklik deyil. Azərbaycanda ödəniş ekosisteminin daha müstəqil, sürətli, təhlükəsiz və səmərəli olması istiqamətində atılmış böyük bir addımdır. Müştərilər bunun faydasını birbaşa sürət və təhlükəsizlikdə hiss edəcəklər.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda kartdan-karta pul köçürmələri sahəsində yeni mərhələ başlayıb. Artıq “card to card” əməliyyatları kart prosesinq sistemi üzərindən deyil, Ani Ödənişlər Sistemi (AÖS) vasitəsilə həyata keçirilir. Azərbaycan Mərkəzi Bankının (AMB) məlumatına görə, bu dəyişiklik bankların daxili infrastrukturunda yeniliklər yaradır və onlara bir sıra texnoloji və əməliyyat üstünlükləri qazandırır. Maraqlıdır, AÖS-ün üstünlükləri nədir? Bu sistem gündəlik pul əməliyyatlarını nə dərəcədə asanlaşdıracaq?

### “MİLLİ MAGİSTRAL YOL”

Maliyyə eksperti İsmayıl Məmmədov deyir ki, Ani Ödənişlər Sistemi (AÖS) müxtəlif banklardakı hesablar arasında pul köçürmələrini bir neçə saniyədə həyata keçirən milli ödəniş infrastrukturudur: “Onu ölkə daxilində işləyən, mərkəzləşdirilmiş “pul körpüsü” kimi təsəvvür edə bilərsiniz. Ən əsası, AMB tərəfindən idarə olunur və əməliyyatlar birbaşa bank kartları deyil, bank hesabları səviyyəsində aparılır. Deyək ki, əvvəllər “card to card” köçürməsi üçün pul, xarici və ya beynəlxalq kart şəbəkələrinin içindən keçməli idi. Bu, bəzən vaxt ala bilərdi və müəyyən riskləri də var idi. İndi isə bu əməliyyat AÖS adlı yeni, geniş və sürətli bir “milli magistral yol”a yönləndirilir. Yəni, pul köçürməsi birbaşa Azərbaycan daxilində, Mərkəzi Bankın nəzarəti altında və daha qısa marşrutla həyata keçirilir. Bu, prosesi daha sürətli, daha təhlükəsiz və banklar üçün daha səmərəli edir”.

### “ƏSASLI VƏ MÜSBƏT DƏYİŞİKLİKLƏR GƏTİRİR”

Ekspert deyir ki, bu keçid banklar üçün əsaslı və müsbət dəyişikliklər gətirir: “İlk növbədə xərcləri azaldır. Mərkəzi Bank AÖS üzrə bu xidmətə görə banklardan xidmət haqqı tutmur. Əvvəlki xarici şəbəkələr üzrə xidmət haqqı ödənilirdi. Həmçinin, proseslər optimallaşdırılır. Yəni, birdən çox xarici tərəflə işləmək əvəzinə, bütün daxili köçürmələr üçün vahid bir milli sistemə keçid bankların daxili iş proseslərini sadələşdirir. Təhlükəsizliyin güclənməsi isə, ən kritik dəyişiklikdir. Köhnə sistemdə bank yalnız kart nömrəsini görürdü. AÖS-də isə əməliyyatlar hesab səviyyəsində aparıldığı üçün həm göndərən, həm də alan tərəf daha dəqiq identifikasiya olunur. Bu, fırıldaqçılıq əməliyyatlarının anında aşkarlanmasına və kart məlumatlarının oğurlanması riskinin azalmasına kömək edir”.

### “BİRBAŞA XƏRC ARADAN QALXIR”

Mütəxəssis vurğulayır ki, bankların bu əməliyyat üçün Mərkəzi Banka ödədiyi birbaşa xərc aradan qalxır: “Bu, banklara komissiyaları azaltmaq və ya yenidən nəzərdən keçirmək üçün real fürsət yaradır. Hər bank öz tarif və qiymət siyasətini müstəqil formalaşdırır. Sistem xərcləri aşağı salır, amma bunun müştəriyə endirim şəklində ötürülməsi hər bir bankın strateji qərarından asılıdır. Sistem sürətlidir. Köçürmələr bir neçə saniyə ərzində başa çatacaq. Sistemin fırıldaqçılığa qarşı daha güclü nəzarət imkanları olduğunu bilmək rahatlıq verəcək. Əlavə olaraq, bütün daxili köçürmələrin vahid, sürətli bir kanaldan getməsi, texniki problem ehtimallarını da aşağı sala bilər. Bu keçid yalnız texniki bir dəyişiklik deyil, Azərbaycanda ödəniş ekosisteminin daha müstəqil, sürətli, təhlükəsiz və səmərəli olması istiqamətində atılmış böyük bir addımdır. Müştərilər bunun faydasını birbaşa sürət və təhlükəsizlikdə hiss edəcək, uzunmüddətli perspektivdə isə tariflərdə də müsbət dəyişikliklər gözləmək olar”.


İsmayıl Məmmədov

## Hesab mərkəzli yanaşmaya keçid

Kibertəhlükəsizlik üzrə ekspert Mehman İsgəndərov deyir ki, AÖS üzərindən “card to card” əməliyyatları rəqəmsal ödəniş ekosistemində risklərin azaldılması istiqamətində mühüm addımdır: “Ənənəvi kart şəbəkələri üzərindən aparılan əməliyyatlarda əsas identifikasiya elementi kart nömrəsi idi. Bu isə kart məlumatlarının oğurlanması, nüsxələnməsi və üçüncü şəxslər tərəfindən sui-istifadəsi riskini artırırdı. AÖS isə əməliyyatları kart səviyyəsindən hesab səviyyəsinə keçirərək bu riski əhəmiyyətli dərəcədə azaldır”.

Ekspert deyir ki, AÖS üzərindən həyata keçirilən əməliyyatlarda kart nömrəsi, CVV kodu və digər həssas məlumatlar birbaşa dövriyyəyə daxil olmur. Bu isə kart oğurluğu və klonlaşdırılması hallarında potensial zərərin qarşısının alınmasına ciddi töhfə verir: “Praktiki olaraq, kart məlumatı ələ keçirilsə belə, həmin məlumatlarla AÖS üzərindən birbaşa köçürmə aparmaq mümkün olmur. AÖS-ün əsas üstünlüklərindən biri əməliyyatların real vaxt rejimində emal və monitorinq edilməsidir. Qeyri-adi məbləğlər, təkrarlanan köçürmələr, müştərinin əvvəlki maliyyə davranışına uyğun olmayan əməliyyatlar sistem tərəfindən dərhal analiz olunur. Şübhəli hallar bankların daxili risk və nəzarət mexanizmlərinə operativ ötürülür və zərurət yarandıqda əməliyyat dərhal bloklana bilir. AÖS-də tətbiq olunan hesab əsaslı identifikasiya modeli köçürmənin kimə və hansı banka edildiyini açıq şəkildə göstərir. Bu yanaşma səhv köçürmələrin, anonim tranzaksiyaların və mübahisəli halların sayını azaldır. Eyni zamanda müştərilər üçün etimad səviyyəsini yüksəldir, banklar üçün isə hüquqi risklərin idarə edilməsini asanlaşdırır”.


Mehman İsgəndərov

### ÇEVİK, TƏHLÜKƏSİZ, ŞƏFFAF SİSTEM

Ənənəvi ödəniş sistemləri ilə müqayisəsinə gəldikdə isə, M.İsgəndərov vurğulayır ki, ənənəvi ödəniş sistemləri əsasən əməliyyatdan sonrakı nəzarət mexanizmlərinə əsaslanırdı: “AÖS isə real vaxt monitorinqi, mərkəzləşdirilmiş nəzarət və hesab səviyyəsində identifikasiya kimi üstünlüklərlə seçilir. Bu xüsusiyyətlər sistemi daha çevik, daha təhlükəsiz və şəffaf edir. Həmçinin, AÖS-ün tətbiqi ilə birlikdə süni intellekt əsaslı fırıldaqçılıq aşkarlama sistemlərinin, davranış analitikasına əsaslanan risk modellərinin və banklararası məlumat mübadiləsinin daha da genişlənəcəyi gözlənilir. Bu proses ölkədə rəqəmsal maliyyə mühitinin dayanıqlığını və kibertəhlükəsizlik səviyyəsini növbəti mərhələyə daşıyacaq”.

İNSANLARIN EKOLOJİ DÜŞÜNCƏ TƏRZİNİ DƏYİŞMƏK MÜMKÜN OLMUR

# BAHALI TORBA, SÖNÜK EKOLOJİ NƏTİCƏ

**Hər il dünya üzrə dörd trilyona yaxın paket istifadə edilir və hər dəqiqədə bir milyon plastik torba tullantıya çevrilir. Plastik məhsulların əksəriyyəti təkrar emal olunmur və uzun illər təbiətdə qalıb çürümədən ətraf mühiti çirkləndirir.**

SEVİNC ABBASOVA

Azərbaycanda polietilen torbaların qiymətində artım qeydə alınıb. Artıq kiçik ölçülü torbalar 5 qəpik, böyük torbalar isə 7 qəpikdən satışa çıxarılır. Əslində hökumətin bu sahəyə müdaxiləsi 2021-ci ildə qəbul edilən qərarla başlamışdı. Həmin qərara əsasən, mağazalarda 15–50 mikron qalınlığında olan torbaların pulsuz verilməsinə son qoyuldu və 2023-cü ilin fevralında ölkənin bütün iri ticarət şəbəkələrində pullu satış tam şəkildə tətbiq edildi. Məqsəd plastik tullantıların azaldılması, əhalinin isə tədricən ekoloji təmiz alternativlərə yönləndirilməsi idi. Lakin illər keçməsinə baxmayaraq, real nəticələrin gözlənildiyi qədər olmadığını müşahidə etmək mümkündür.



### İSTİFADƏ NİYƏ AZALMIR?

Dünyada plastik istehsalının həcmi illik 500 milyon tona yaxındır. Bu nəhəng sahənin mühüm hissəsini polietilen torbalar təşkil edir. Hər il dünya üzrə 4 trilyona yaxın paket istifadə edilir və hər dəqiqədə bir milyon plastik torba tullantıya çevrilir. Plastik məhsulların əksəriyyəti təkrar emal olunmur və uzun illər təbiətdə qalıb çürümədən ətraf mühiti çirkləndirir. Bu faktlar göstərir ki, polietilen torbalar təkcə Azərbaycanda deyil, bütün dünyada ciddi ekoloji problem yaradır. Amma ölkəmizdə tətbiq edilən ödəniş mexanizmi hələlik onların istifadəsini nəzərəçarpacaq dərəcədə azaltmayıb. Müşahidələr göstərir ki, ticarət şəbəkələrində torbaların ödənişli olması əvvəlki qədər çox götürülməsini azaltsa da, insanların tam şəkildə alternativlərə keçməsi baş verməyib.

### TƏK ADDIM YETƏRLİ DEYİL

Marketoloq Pərviz Əzimov deyir ki, uğursuzluğun əsas səbəbi prosesin birtərəfli tətbiq edilməsidir. Yəni, plastik torbaların pullu olması tətbiq olundu, amma insanları alternativ çantalara keçməyə təşviq edən paralel addımlar atılmadı. Onun sözlərinə görə, digər ölkələrdə ödəniş sistemi mütləq şəkildə uzunömürlü, parça və çoxistifadəli çantaların təbliği ilə müşayiət olunur: "Marketlər həmin çantaları ya endirimlə təklif edir, ya müəyyən alış-verişdən sonra hədiyyə edir, ekoloji təşkilatlarla birgə maarifləndirici aksiyalar keçirir. Azərbaycanda isə bu zəncirin yalnız bir halqası işlədildi. Nəticədə insanlar torbalara pul vermək məcburiyyətində qaldı, lakin alternativə keçid üçün motivasiya yaranmadı və gözlənilən dəyişiklik baş vermədi".

Ekspert vurğulayır ki, plastik torbalardan istifadəni azaltmağın qarşısında duran əsas çətinliklərdən biri də məişət tullantılarının atılması üçün alternativlərin olmamasıdır: "Bir çox Avropa ölkəsində zibilin daşınması üçün bioloji parçalanan, çürüyən xüsusi torbalardan istifadə edilir. Azərbaycanda bu cür məhsulların geniş dövriyyədə və alçatan olmaması səbəbindən insanlar marketdən aldıqları plastik torbaları həm də zibil torbası kimi istifadə etməkdə davam edirlər. Beləliklə, torbaların ödənişli olması onların əvəzedici funksiyası olduğu üçün istifadənin kəskin azalmasına gətirib çıxarmır".



### ŞİRKƏTLƏRİN EKOLOJİ MƏSULİYYƏTİ

Marketoloq onu da qeyd edir ki, Qərb ölkələrində şirkətlər ekoloji davamlılığı korporativ imiclərinin əsas prinsipi kimi qəbul edirlər. Orada biznes qurumları hər ay karbon emissiyalarını ölçür, tullantıların azaldılması üçün planlar hazırlayır və ictimaiyyətə hesabat təqdim edirlər: "Azərbaycanda isə bu yanaşma hələ geniş yayılmayıb. Bir çox şirkət ekoloji məsuliyyəti marketinq imkanı kimi görmür və plastik torbaların məhdudlaşdırılması prosesində daha fəal iştirak etmir. Bu isə təbii olaraq gözlənilən nəticələrin gecikməsinə səbəb olur".


Pərviz Əzimov

## DƏYİŞMƏYƏN DÜŞÜNCƏ

"Səma və EKO" Sosial-İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri, ekoloq İradə Həsənova deyir ki, plastik torbalardan istifadənin azalmaması insanların ekoloji düşüncə tərzinin hələ də dəyişməməsindən qaynaqlanır. Onun sözlərinə görə, ekoloji təfəkkürü formalaşdırmaq üçün əvvəlcə insanların şüurunda dönüş olmalıdır: "İnsanlar çox zaman rahatlığa üstünlük verirlər, özləri ilə əlavə torba götürməyə həvəs göstərmirlər, halbuki istifadəyə tam yararlı eko torbalar mövcuddur və hər kəs çantasında belə torba saxlayarsa, problem yaşanmaz".

Ekoloq vurğulayır ki, mağazalarda da geniş maarifləndirmə aparmaq mümkündür, lakin onlar üçün belə təşəbbüslər maraqlı deyil: "Məsələn, "yaşıl eko günlər" keçirmək olar. Amma biznes strukturları bu işdə maraqlı olmurlar. Nəticədə isə həm ekologiya zərər görür, həm də plastik tullantıların təbiətdə parçalanması yüz illərlə davam edir".

İ.Həsənova qeyd edir ki, torbaların qiymətinin artırılması vəziyyəti dəyişməyəcək: "Pullu sistem yeni tətbiq olunanda böyük gözləntilər vardı. Hər kəs bunun ciddi dəyişiklik yaradacağını düşünürdü, amma nəticə dəyişmədi. Ekoloji şüur dəyişmədikcə vəziyyət olduğu kimi qalacaq".


İradə Həsənova

## "ƏN YAXŞI ALTERNATİV CƏNUB ZƏNBİLLƏRİ SAYILIR"

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirir ki, ətraf mühiti sürətlə çirkləndirən polietilen torbalar həm dünyanın, həm də ölkənin ciddi problemlərindən biridir: "Biz mütəmadi olaraq çalışmışıq ki, bu torbaların satışı pullu olsun. Çünki bu, MDB məkanında və digər ölkələrdə sınaqdan keçirilmiş bir təcrübədir. Təəssüflər olsun ki, hökumət bu barədə qərarlar qəbul etsə də, biznes qurumları bundan sui-istifadə etdilər. Biz tərəfdarıyıq ki, torbalar son dərəcə nazik, rəngsiz və reklam materialı olmadan istifadə edilsin. Reklam materiallarındakı rənglərdə ağır metallardan istifadə olunur və bu da evlərə daşınır. Üstəlik, son günlər torbaların həm qiyməti artıb, həm də keyfiyyəti aşağı düşüb, alıcılar da bundan narazıdır".

E.Hüseynovun fikrincə, əhali polietilen torbalardan birdəfəlik imtina etməlidir və onların yerinə ev və bazar torbalarından istifadə olunmalıdır: "Ən yaxşı alternativ cənub zənbilləridir, çünki onlar həm ekoloji təmizdir, həm də dəfələrlə istifadə oluna bilər".


Eyyub Hüseynov

# ƏDVİYYAT BAZARINDA ASILILIQ PROBLEMİ



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

**Azərbaycanda ədviyyat bazarı əsasən idxal hesabına formalaşır. Bu da qiymətləri qlobal bazardan asılı vəziyyətə salır. Yerli istehsal yalnız bəzi məhsullarla məhdudlaşır. Mütəxəssislər hesab edirlər ki, idxaldan asılılıq davam edəcək.**

Ötən ilin ilk 10 ayında Azərbaycan 981 min ABŞ dolları dəyərində 547 ton sarıkök idxal edib. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2,4 faiz artım, kəmiyyət baxımından isə beş faiz azalma deməkdir. Təkcə sarıkök deyil, bir sıra digər ədviyyatlar üzrə də bazar əsasən idxal hesabına formalaşır. Bəs Azərbaycan niyə ədviyyat baxımından idxaldan asılıdır? Ölkədə ən çox hansı ədviyyatlara ehtiyac var və bu tələbat hansı məhsullarda daha çox cəmlənir? Yerli istehsalın payı niyə hələ də məhduddur və ədviyyat bazarının əsas problemləri nələrdir?

### ƏN ÇOX SATILAN ƏDVİYYATLAR

"Nid" ədviyyat şirkətinin satış müdiri İqbal Yasərlinin sözlərinə görə, Azərbaycanda ən çox satılan ədviyyatlar sarıkök, istiot və sumaqdır: "Bunlar ənənəvi ədviyyatlar hesab olunur. Bayram dövrlərində isə zirinc, zirə, razyana və hilə tələbat artır. Son illər xarici mətbəxlərdə istifadə olunan ədviyyatlara da maraq yüksəlib. Məsələn, kimyon, ugindi, kətan və çia toxumu kimi məhsullar daha çox istifadə olunur. Halbuki 3-5 il əvvəl bu ədviyyatlar istehlakçılar üçün o qədər də maraqlı deyildi. Hazırda ən çox istifadə olunan ədviyyatlar sırasında darçın, sumaq, sarıkök, istiot, nanə, reyhan, kəklikotu və mixək yer alır".

İ.Yasərlinin fikrincə, istiot, sarıkök və zəncəfil xarici bazar məhsullarıdır, çünki bu bitkilər Azərbaycanda yetişmir və iqlim buna imkan vermir: "Yerli istehsal əsasən dağ sumağı, dağ kəklikotusu və nanə ilə məhdudlaşır. İstiot Çindən və Vyetnamdan gətirilir. Keyfiyyət baxımından Vyetnam mənşəli istiot daha üstün hesab olunur. Sarıkökdə isə Hindistandan gətirilən məhsullar daha keyfiyyətli sayılır".

### "ALICI KEYFİYYƏTLİ MƏHSULA ÜSTÜNLÜK VERİR"

Satış müdiri bildirdi ki, məhsullar hazır üyüdülmüş formada deyil, əsasən dənə və ya çubuq şəklində alınır: "Məsələn, istiot dənə şəklində, sarıkök, zəncəfil və darçın isə çubuq formasında tədarük olunur və üyüdülmə prosesi yerində həyata keçirilir. Qiymətlərin formalaşmasına ən çox təsir edən amillər yanacaq qiymətləri, logistika xərcləri və gömrük rüsumlarıdır".

İ.Yasərli bildirdi ki, əvvəllər istehlakçılar əsasən ucuz məhsullara üstünlük verirdisə, indi keyfiyyət daha ön plana çıxır: "Qiyməti aşağı olan məhsulu alan alıcı, adətən, ikinci dəfə həmin məhsulu seçmir. Məsələn, sarıkök 60 qəpik-1 manat aralığında satılsa da, alıcı bir qədər baha olsa belə, keyfiyyətli məhsula üstünlük verir".



### "Ədviyyatlar gün işığına məruz qalmamalıdır"

Müsahibimizin sözlərinə görə, bazarda müəyyən problemlər də mövcuddur: "Sağlam rəqabət mühiti tam formalaşmayıb, istehsalçılar məhsullara fərqli qiymətlər təyin edirlər. Azərbaycanda bir çox istehsalçı faktiki olaraq yalnız qablaşdırma ilə məşğuldur. Bəzi hallarda məhsul baha alınıb baha satılır, bəzi hallarda isə keyfiyyətsiz məhsullar ucuz qiymətə bazara çıxarılır. Ədviyyatlar gün işığına məruz qalmamalıdır. Lakin bəzi istehsalçılar məhsulları şəffaf qablaşdırmada təqdim edir və bu zaman günəşlə təmas yaranır. Məsələn, mixək günəş altında efir yağını itirə və sellofanla təmasda kimyəvi reaksiyalar baş verə bilər".

### "YETİŞDİRİLMƏSİ ÇƏTİNDİR"

İqtisadçı Akif Nəsirli isə bildirdi ki, hazırda Azərbaycanda ən çox satılan ədviyyatlar sarıkök, qara istiot, qırmızı istiot, darçın, mixək, zəncəfil, zirə, keşniş toxumu, sumaq və dəfnə yarpağıdır. Gündəlik mətbəxdə geniş istifadə olunan bu məhsullar həm pərakəndə satışda, həm də ictimai iaşə sektorunda əsas paya malikdir: "Xüsusilə sarıkök, qara və qırmızı istiot sabit, yüksək tələbatlı məhsullar sayılır. Ölkədə ən çox ehtiyac olan ədviyyatlar yerli iqlim şəraitində yetişdirilməsi çətin və ya mümkün olmayan tropik və subtropik mənşəli məhsullardır. Bunlara sarıkök, qara istiot, darçın, mixək və zəncəfil daxildir".



Akif Nəsirli

### "İdxaldan asılılıq davam edəcək"

İqtisadçının sözlərinə görə, Azərbaycanda bəzi ədviyyatların yerli istehsalı mövcuddur: "Sumaq, dəfnə yarpağı, keşniş, şüyüd toxumu, reyhan, nanə, zəfəran və qırmızı bibər ölkə daxilində yetişdirilir. Bununla belə, sarıkök, qara istiot, darçın, mixək və zəncəfil əsasən Hindistan, İran, Vyetnam, İndoneziya və digər ölkələrdən gətirilir. İqlimə uyğun olan məhsullar üzrə istehsalın artırılması mümkündür. Zəfəran, qırmızı bibər, keşniş, zirə, sumaq, dəfnə, reyhan və digər aromatik otların istehsalının genişləndirilməsi real hesab olunur. İstixana şəraitində zəncəfil kimi bəzi məhsulların məhdud miqyasda becərilməsi mümkün olsa da, bu, bazarın ümumi tələbatını tam qarşılamaq üçün kifayət etmir. Real ssenaridə ümumi asılılığın təxminən 20-30 faiz azalması mümkün hesab edilir. Lakin tropik məhsullar üzrə asılılıq qalmaqda davam edəcək".

A.Nəsirlinin sözlərinə görə, hazırda ədviyyatların qiymətlərində artım müşahidə olunur: "Xüsusilə sarıkök, zəncəfil və qara istiot kimi məhsullarda son illər qiymət artımı daha qabarıq hiss edilir. Qiymətlərin formalaşmasına qlobal bazar, valyuta məzənnəsi, logistika xərcləri, idxal rüsumları və daxili bazarda rəqabətin səviyyəsi təsir göstərir. Əsas təsir qlobal bazardan gəlsə də, nəqliyyat xərcləri bu prosesi daha da sürətləndirir. Keyfiyyət baxımından Hindistan, Vyetnam, Şri-Lanka və İndoneziya mənşəli məhsullar daha üstün hesab olunur. İran bəzi ədviyyatlarda qiymət və keyfiyyət balansına görə bazarda güclü mövqeyə malikdir. Türkiyə isə əsasən qablaşdırma və emal olunmuş məhsullarla seçilir".

### ƏDVİYYAT QİYMƏTLƏRİ

Sarıkök (zərdəçal): Marketlərdə 20 qramı təxminən 40 qəpik, 50 qramı 2 manat, 80-100 qramlıq paketlər isə 1,8-3,35 manat aralığında satılır. Orta hesabla 100 qram üçün qiymət 2-3 manat təşkil edir. Qırmızı bibər/pul bibər: 15 qramlıq paketlər 65-70 qəpikdir. 40 qramlıq qablaşdırmalar 1,4-2,8 manat, 50-70 qramlıq paketlər isə 2,5-2,8 manat aralığındadır. 100 qram üçün orta qiymət 2,3-2,5 manatdır. Qara istiot: 15 qramlıq paketlər 75 qəpik-1,35 manat, 50 qramlıq paketlər 3,9-4 manat, 100 qramlıq qablaşdırmalar isə 4,5-4,8 manat aralığındadır. Orta hesabla 100 qram üçün qiymət 4 manatdan yuxarıdır. Hil: 5 qramlıq dənəvər paketlər təxminən 2 manat, 10 qramlıq paketlər 0,9-1,45 manatdır. Bu da 100 qram üçün təxminən 15-25 manat deməkdir. Mixək: 15 qramlıq paketlərdə qiymət 3 manatdan yuxarı, 50 qramlıq qablaşdırmalarda isə təxminən 4,5 manatdır.

# PORTUQALİYANIN DİNİ PAYTAXTI
















XV əsrdən bəri Portuqaliyanın dini paytaxtı olması burada ənənəvi dindarlığa, dərin kök salmış adət-ənənələrə və vərdişlərə malik qədim şəhər formalaşdırıb. Ölkənin əsas dini mərkəzi olması Braqaya zəngin tarix bəxş edib.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Braqa Portuqaliyanın üçüncü ən böyük şəhəridir. Ölkənin şimalında yerləşən şəhər eyniadlı rayonun və bələdiyyənin paytaxtıdır. Bir vaxtlar şəhər keltlər, romalılar və mavrlar kimi qədim qəbilələrə ev sahibliyi edib. Ona görə də tarix bu şəhəri müxtəlif bədii, memarlıq və mədəni hərəkatların çalarları ilə rəngləndirib.

### "ARXİYEPİSKOPLAR ŞƏHƏRİ"

Braqa - ziddiyyətlər şəhəridir. XV əsrdən bəri Portuqaliyanın dini paytaxtı olması burada ənənəvi dindarlığa, dərin kök salmış adət-ənənələrə və vərdişlərə malik qədim bir şəhər formalaşdırıb. Ölkənin əsas dini mərkəzi olması Braqaya zəngin tarix bəxş edib.

Şəhər Portuqaliyanın aparıcı ilahiyyat tədqiqat mərkəzi hesab olunur və "Arxiyepiskoplar şəhəri" adı ilə öyünür. Katolikliyin mərkəzi kimi tanınır və XVI əsrin əvvəllərindən bəri arxiyepiskopun iqamətgahına ev sahibliyi edir. Hər il yüz minlərlə zəvvar və turist buraya axın edir, müxtəlif tarixi dövrlərdə tikilmiş unikal memarlıq abidələrini heyranlıqla izləyir.

Şəhər əfsanə və xurafatlarla dolu cazibədar zadəganlıq və mistisizm atmosferi ilə doludur.

### "BU KAFEDRAL O QƏDƏR QƏDİMDİR Kİ..."

Braqa Turizm İdarəsinin bələdçisi Tiaqo Pinto şəhər gəzintisi zamanı şəhər haqqında ətraflı məlumat verir. Deyir ki, Braqada olan 200-dən artıq kilsə bu şəhərə "Portuqaliya Roması" ləqəbini qazandırıb. Bu tarixi məbədlərin 60-ı isə katolik kilsəsidir. Xristianlıq III əsrdən bəri şəhərin tarixi və iqtisadiyyatı ilə sıx bağlı olub. Portuqaliyanın ən qədim kilsəsi olan Braqa Kafedralı də burada yerləşir. 1070-ci ildə inşa edilən bu kilsə Portuqaliyanın ilk kralı Afonso Henriquesin valideynləri Henri və Teresanın dəfn yeri olub: "Braqa Kafedralı əsrlər boyu Portuqaliyanın ən vacib dini mərkəzi olub. Bu kafedral o qədər qədimdir ki, portuqallar bir şeyi çox qədim adlandırmaq istədikdə, adətən "Braqa Kafedralından daha qədim" deyirlər".

XVI-XVIII əsrlər şəhərin tarixində qızıl dövr olub. Bunu əsasən Braqada həm dünyəvi, həm də mənəvi hakimiyyəti həyata keçirən və özünün dediyi kimi, "kəndi şəhərə" çevirən arxiyepiskop Dioqo de Souzanın əməyi ilə reallaşıb.

### MƏDƏNİYYƏT, TƏHSİL VƏ TƏDQİQAT SAHƏSİNDƏ ETALON

Bu gün Braqa həm də ölkənin ən böyük sənaye və universitet şəhərlərindən biri kimi tanınır. Şəhər hər il Portuqaliyaya gələn miqrantlar üçün əsas məkana da çevrilib. "Bəs bu qədər miqrantı şəhərə cəlb edən nədir?" deyə maraqlanıram: "Braqa həyat keyfiyyətinin ən yüksək olduğu Avropa şəhərlərinin reytinqində üçüncü yerdədir. Avropa Komissiyası tərəfindən aparılan bir sorğu göstərdi ki, Braqa sakinlərinin 97%-i bu şəhərdə yaşamaqdan məmnundur. Çünki Braqa mədəniyyət, təhsil və tədqiqat sahəsində etalon hesab olunur".

### LİSSABON VƏ PORTO İLƏ MÜQAYİSƏDƏ DAHA UCUZLUQDUR

Braqaya köçməyin digər bir səbəbi ölkənin digər iki böyük şəhəri olan Lissabon və Porto ilə müqayisədə burada əlverişli həyat səviyyəsinin olmasıdır. Daşınmaz əmlakın satışı və ya icarəsi, aylıq kommunallar, uşaqlar üçün xərclər, idman, istirahət və nəqliyyat xərcləri Braqada Lissabon və Porto ilə müqayisədə daha münasibdir. Geyim xərcləri isə Portuqaliyanın digər bölgələrindəki qiymətlərdən aşağıdır.

Standart ərzaq səbətinin qiyməti isə digər Portuqaliya şəhərlərindən əhəmiyyətli dərəcədə fərqlənmir. Ucuz bir kafedə nahar 7-8 avroya başa gəlir.

### YAŞILLIQLARLA ƏHATƏ OLUNAN ŞƏHƏR

Bələdçi deyir ki, Braqada şəhər üçün lazım olan bütün zəruri infrastruktur mövcuddur: "Şəhərdə uşaq bağçaları, məktəblər, liseylər və universitet, eləcə də uşaqlar və yeniyetmələr üçün müxtəlif əyləncə məkanları və idman klubları var. Metro yoxdur, lakin kifayət qədər inkişaf etmiş avtobus şəbəkəsi mövcuddur. Şəhərdə hipermarketlər, müxtəlif geyim mağazaları və ticarət mərkəzləri var. Bölgəni tanıyanlar bilirlər ki, burada yaşıl rəng üstünlük təşkil edir. Yerləşməsi, iqlimi və təbii sərvətləri sayəsində Braqa yaşıllıqlarla əhatə olunub".

Braqa yüksək məşğulluq səviyyəsi ilə də seçilir: "Şəhərdə böyük şirkətlər fəaliyyət göstərir və bu da iş tapmaq imkanlarını artırır. Burada texnologiya, tekstil və dizayn sənayesi inkişaf edib".

Həmçinin şəhərdə təhlükəsizlik səviyyəsi yüksəkdir. Braqanın mehriban və ünsiyyətcil yerli sakinləri var.

2250 illik tarixə malik şəhər əhalisinin gənc olması ilə də fərqlənir. Burada çoxlu tələbə olduğuna görə axşama doğru şəhərin küçələrində izdiham yaranır. Gənclərin canlı gecə həyatına qarışan səs-küyü səhərə qədər davam edir...

Braqaya gəncləri cəlb edən səbəblərdən biri Portuqaliyanın və bütün Avropanın ən yaxşı ali təhsil müəssisələrindən biri olan Minho Universitetinin (Universidade do Minho) burada yerləşməsidir. Bu ali təhsil müəssisəsi 1973-cü ildə tarixi Minho əyalətində təsis edilib və 12 fakültədən ibarətdir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
7 FEVRAL ŞƏNBƏ 2026
www.kaspi.az

Mental məsələlər ölkədə hələ də qadınların futbola inteqrasiyasında ciddi maneə olaraq qalır. Lakin vacib olan odur ki, liqalar keçirilir, struktur qurulur, davamlılıq təmin olunur. Bu addımların nəticəsi artıq görünməkdədir.

# SİSTEMLİ İNKİŞAF, REAL NƏTİCƏLƏR




Bir zamanlar "qız hara, futbol hara?" kimi yanaşmalar səslənsə də, bu gün Azərbaycanda qadın futbolu sürətli inkişafı ilə diqqət çəkir. Son illərin dinamikası göstərir ki, xanımlarımız yaşıl meydanlarda öz yerlərini möhkəmləndirməkdə israrlıdırlar. Maraqlıdır ki, bu sahədə legioner həyatı yaşayan qadın futbolçularımızın sayı artır. Qadın futbolçularımız Avropanın müxtəlif ölkələrində, güclü və iddialı klubların heyətində uğurla çıxış edirlər.

**SUPER LİQADAN BUNDESLİQAYA QƏDƏR**

Qadın futbolçulardan ibarət əsas milli komandamızın "FIFA Tri Nations Women's Football Series 2025" turniri üçün heyətinə nəzər saldıqda maraqlı mənzərə ortaya çıxır. Belə ki, 23 futbolçudan 15-i hazırda ölkə xaricində çıxış edir. Siyahıda Türkiyə Super Liqasının iddialı klubları olan "Fənərbağça" və "Beşiktaş", Rusiyanın "Zenit", Qazaxıstanın isə "Aktobe" kimi güclü komandalarının adlarına rast gəlmək mümkündür. Üstəlik, futbolçularımız bu klublarda sadəcə heyətdə yer almır, əsas oyunçu statusu ilə çıxış edirlər.

Son günlər legioner həyatı yaşayan futbolçularımızın sırasına daha iki əlavə olunub. Alina Nəhmədova "Neftçi"dən Serbiyanın köklü klublarından olan "Partizan"a transfer edilib. "Ağ-qaralar"ın digər üzvü Coşqunə Əliyeva isə karyerasını Türkiyədə davam etdirərək "Qaziantep"in formasını geyinəcək. Son günlərin ən diqqətçəkən xəbəri isə Nigar Mirzəliyevanın Almaniya Bundesliqasına transferidir. Daha əvvəl Rusiyanın "Zenit" klubunda uğurla çıxış edən futbolçu bundan sonra "Hamburq"un şərəfini qoruyacaq. O, sözügedən klubla 2,5 illik müqavilə imzalayıb. Bu transfer Azərbaycan qadın futbolu üçün Bundesliqaya atılan ilk addım kimi tarixə düşür.

## Nigarın uğurlu karyera yolu

Mirzəliyeva azərbaycanlı qadın futbolçular arasında ən diqqətçəkən simalardan biridir. Gənc oyunçu xüsusilə Rusiyada göstərdiyi oyunla adından söz etdirməyi bacarıb. Sankt-Peterburq təmsilçisi "Zenit"in heyətində çıxış edən Nigar ötən il Rusiya Super Kubokunun qalibi olmaqla diqqət mərkəzinə düşüb. 2022-ci ildən "Zenit"in formasını geyinən futbolçu qısa zamanda komandanın aparıcı simalarından birinə çevrilib. Onun adı dəfələrlə Rusiya çempionatında turun rəmzi komandasına düşüb ki, bu da stabil və yüksək səviyyəli çıxışın göstəricisi idi. Nigar Mirzəliyeva "Zenit"lə ikinci dəfə Rusiya Super Kubokunu qazanmaqla yanaşı, 2023 və 2024-cü illər mövsümlərində ölkə çempionu tituluna da sahib çıxıb. U-17 və U-19 milli komandalarımızda çıxış etmiş futbolçu hazırda əsas milli yığmanın da aparıcı üzvlərindən sayılır. Klub səviyyəsində "Rubin"də başlayan, "Zenit"də davam edən uğurlu karyera yolu indi Almaniya Bundesliqasında daha yüksək mərhələyə qədəm qoyur. Bundesliqaya transfer Azərbaycan qadın futbolu üçün yeni bir səhifə olmaqla yanaşı, Mirzəliyevanın fərdi inkişafında da mühüm mərhələdir. O, Almaniyada ölkəmizi layiqli təmsil etməklə böyük hədəflərə doğru addımlamağı qarşısına məqsəd qoyub: "Hamburq"a keçdiyim üçün çox xoşbəxtəm. Bundesliqada oynayacaq ilk azərbaycanlı qadın futbolçu olduğum üçün qürurluyam. "Hamburq" zəngin tarixə malik olan klubdur. Burada yaxşı çıxış etməyə, ölkəmizi daha uğurlu təmsil etməyə çalışacağam. Hədəflərim böyükdür. Böyük uğurlara imza atacağıma inanıram".

## Qadın futbolu necə yüksəlir?

Hazırda Azərbaycanda qadın futbolunun inkişafı sistemli baş verir. U-12, U-14, U-16 və Yüksək Qızlar Liqasının keçirilməsi bu sahədə real addımların olduğunu göstərir. Bu liqalar qadın futbolunun yalnız yuxarı səviyyədə yox, aşağı yaş qruplarından etibarən formalaşmasına imkan yaradır. Önəmli məqamlardan biri odur ki, qadın futbolu artıq təkcə paytaxt Bakı ilə məhdudlaşmır. Son illərdə bölgələrdə komandalar yaradılıb, yerli klublar qızlardan ibarət kollektivlər formalaşdırmağa başlayıblar. Bu da istedadların üzə çıxması üçün daha geniş mühit yaradır. Düzdür, hazırkı mərhələdə ümumi rəqabət hələ yüksək səviyyədə deyil. Komandalar arasında səviyyə fərqi qeydə alınan hesablarla açıq şəkildə hiss olunur və bu, liqaların keyfiyyətinə təsir göstərir. Bundan əlavə, mental məsələlər hələ də qadınların futbola inteqrasiyasında ciddi maneə olaraq qalır. Lakin vacib olan odur ki, liqalar keçirilir, struktur qurulur, davamlılıq təmin olunur. Bu addımların nəticəsi artıq görünməkdədir: daha çox qız futbola cəlb olunur, milli komandalar üçün baza genişlənir, legioner həyatı yaşayan futbolçuların sayı artır.

## Atılan addımlar nəticəsiz qalmır

2023-cü ildə qadın futbolçulardan ibarət milli komandamız UEFA Millətlər Liqasında B Liqasına vəsiqə qazanmaqla hamımızı qürurlandıran tarixi bir uğura imza atmışdı. Düzdür, burada möhkəmlənmək mümkün olmadı, lakin qızlarımız heç bir komandaya asanlıqla təslim olmadılar, sona qədər vuruşdular.



Son olaraq isə qadın millimiz yazının əvvəlində qeyd etdiyimiz "FIFA Tri Nations Women's Football Series 2025" turnirinin qalibi olmaqla inkişaf prosesinin nəticə verdiyini göstərdi. Bəlkə də bunlar hələ böyük titullar deyil, amma atılan addımların nəticəsiz qalmadığını deməyə əsas verir. Əsas məsələ bu prosesi qorumaq, genişləndirmək və davamlı etməkdir.